AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 MART 2019-cu il BAZAR № 51 (6378) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Bolqarıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Rumen Radevə

Hörmətli cənab Prezident,

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Bolqarıstan əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 27 fevral 2019-cu il.**

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 79-cu kitabı çapdan çıxıb

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 79-cu kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin martından may ayınadək olan dövrü əhatə edir.




Həmin dövrdə Azərbaycanın ev sahibliyi etdiyi tədbirlərdən biri V Qlobal Bakı Forumu olub. Forumun 2017-ci il martın 16-da keçirilən açılış mərasimində Azərbaycanın regionda və dünyada güclü mövqeyə malik olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Beynəlxalq ictimaiyyət bizə hörmətlə yanaşır. Çünki biz müstəqil siyasət aparırıq və hər zaman vədlərimizə sadiqik. Yəni biz etibarlı tərəfdaşıq və bütün qonşular ilə yaxşı, eyni zamanda, praqmatik əlaqələr qura bilmişik. Bu əlaqələr tarix, dostluq, qarşılıqlı maraq, qarşılıqlı hörmət, habelə bir-birinin işlərinə müdaxilə etməmək prinsiplərinə söykənir.

Regional əməkdaşlıq və bütün qonşularımız ilə münasibətlərimiz bizim üçün mühüm əhəmiyyət kəsb edir. Məncə, bunu hər bir ölkəyə şamil etmək olar. Bir dövlətin qonşusu ilə hər hansı bir problemi varsa, burada hər iki tərəf əziyyət çəkir. Bu səbəbdən Ermənistan istisna olmaqla, bizim bütün qonşularımız ilə çox yaxşı əlaqələrimiz var. Biz çoxlu sayda enerji, nəqliyyat, ticarət və mədəniyyət layihələri həyata keçiririk ki, onlar xalqlarımızı daha da yaxınlaşdırır".

Kitaba Prezident İlham Əliyevin Fransa və İrana səfərləri, Bakıya səfər etmiş Qazaxıstan Prezidenti ilə apardığı danışıqlar barədə materiallar, imzalanan sənədlər, dövlət başçılarının mətbuata bəyanatları haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Böyük Britaniya, Səudiyyə Ərəbistanı, Fransa və digər dövlətlərin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallarla da tanış ola bilər.

Çoxcildliyin 79-cu kitabında Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start mərasimində, Bakı Ali Neft Məktəbinin yeni şəhərciyinin açılışında, Novruz bayramı münasibətilə İçərişəhərdə təşkil olunan bayram şənliyində çıxış və nitqlərinin mətnləri toplanıb.

Bu nəşrdə dövlətimizin başçısının Saatlı rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində, həmçinin Yevlax rayonunda qeyri-neft ixracatçılarının respublika müşavirəsində, Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqlərinin mətnləri də yer alıb.

Kitaba Prezident İlham Əliyevin "İslamın həmrəyliyi - zamanın çağırışı" beynəlxalq konfransın, Qafqazşünaslıq I Beynəlxalq Forumunun, "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" IV beynəlxalq elmi konfransın iştirakçılarına məktubları və digər məktublar daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 79-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

## "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 23, maddə 996; 1993, N 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 5, maddə 251; 2003, N 12, I kitab, maddə 677; 2005, N 4, maddə 291; 2006, N 10, maddə 846; 2007, N 3, maddə 213; 2008, N 6, maddələr 452, 472; 2009, N 1, maddə 4, N 5, maddə 312, N 7, maddələr 514, 515, N 12, maddə 974; 2010, N 3, maddə 174, N 11, maddə 960; 2011, N 11, maddə 992; 2012, N 7, maddə 664, N 11, maddələr 1036, 1048, 1061; 2013, N 5, maddələr 460, 478, N 10, maddə 1143, N 12, maddə 1477; 2014, N 6, maddələr 612, 623; 2015, N 12, maddə 1447; 2016, N 12, maddələr 1979, 2040; 2017, N 1, maddələr 16, 27, N 7, maddə 1311, N 10, maddə 1771, N 11, maddə 1962, N 12, I kitab, maddələr 2242, 2269; 2018, N 2, maddə 168, N 3, maddə 387, N 5, maddələr 841, 859, 874, N 6, maddə 1190; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1289-VQD nömrəli, 1290-VQD nömrəli və 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli qanunları) 2-ci maddəsində "Azərbaycan Respublikasının aşağıdakı medalları təsis edilsin:" sözlərindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Qızıl Ulduz" medalı;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 fevral 2019-cu il.**

## "Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1847 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 334 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Tərcümə Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1847 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 2, maddə 211) adına və 1-ci hissəsinə "Tərcümə" sözündən əvvəl "Azərbaycan Dövlət" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 3375 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 8 noyabr tarixli 334 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 3375 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 11, maddə 2084) 1-ci hissəsində "Tərcümə Mərkəzinin direktoru" sözləri "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1465-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1465-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə və 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1189-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 fevral tarixli 1254 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 2, maddə 198) ilə təsdiq edilmiş "Bakı Mühəndislik Universiteti" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 2.4-cü bənddə "tələbə qəbulu planı" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulu" sözləri ilə əvəz edilsin;

*1.2.* 5.4-cü bənddə "tələbə qəbulu planının" sözləri "müvafiq ixtisaslar üzrə tələbə qəbulunun" sözləri ilə əvəz edilsin;

*1.3.* 7.6-cı bənddə "tədris" sözü "təhsil" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1628 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 10, maddə 1795) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin 5.9-cu bəndində "qəbul planını" sözləri "müvafiq ixtisaslar üzrə qəbulu" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

*Azərbaycan təhlükəsizlik orqanlarının 100 illiyi qarşısında*

# HÜQUQİ BAZANIN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ ORQANLARINDA YÜKSƏK XİDMƏTİN VACİB ŞƏRTİDİR

**Nizam-intizam təhlükəsizlik orqanlarının işinin əsasını təşkil edən amillərdən biridir. Hərbi qulluq birinci növbədə nizam-intizam üzərində qurulur. Təhlükəsizlik orqanlarında işləyən sıravi adam da, zabit də, rəhbər işçi də bilməlidir ki, nizamnamə, Konstitusiya sizin üçün rəhbər və istiqamətverici sənəddir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



**Əgər hər yerdə sakitlikdirsə, təhlükə yoxdursa, deməli, təhlükəsizlik orqanları yaxşı işləyir. Sizin peşə uğurlarınız çox vaxt ictimai diqqətdən kənarda qalır. Çünki sizin fəaliyyətiniz spesifikdir. Son illərdə ölkələrimizin təhlükəsizlik orqanlarının qazandığı uğurlar bəzən məlum olmur. Lakin vətəndaşlar bir şeyi bilirlər ki, təhlükəsizlik orqanları öz işini hər gün yerinə yetirir, istirahət günləri olmadan qanunun və təhlükəsizliyin keşiyində dayanırlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Qədim dövlətçilik tarixinə malik, ötən əsrin əvvəlində müsəlman Şərqində və türk dünyasında ilk demokratik respublika qurmağa nail olmuş Azərbaycan keçmiş sovetlər birliyinin süqutundan sonra, 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa etmişdir. Azərbaycan xalqı daha geniş demokratik dəyərlərə qovuşmaq imkanından yararlanaraq, özünün milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir, sivil, hüquqi dövlət quruculuğu yolunu seçmişdir.**

Müstəqilliyin ilk illərində gənc respublika böyük sınaqlarla üzləşmiş, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə qarşılaşmışdır. Dövlətin taleyinin həll olunduğu bir vaxtda xalqın israrlı tələbi ilə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bütün çətinlikləri dəf edərək, özünün strateji inkişaf yolunu müəyyənləşdirməyə və bu istiqamətdə inamla irəliləməyə nail olmuşdur.

Azərbaycan tarixinin son 30 ildən artıq bir dövrü ömrünü respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində inkişafa həsr etmiş ümummilli lider, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Ulu öndər qətiyyəti, uzaqgörənliyi, bənzərsiz idarəetmə bacarığı sayəsində bu illər ərzində Azərbaycanı zamanın ağır və sərt sınaqlarından məharətlə çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün misilsiz addımlar atmışdır.

Məhz buna görə Azərbaycanın 1969-cu ildən bəri yaşanan, müstəqilliyini qazanmaq və tərəqqi şansını əldə edə bilmək kimi tarixi dövrü xalqımızın yaddaşına Heydər Əliyev epoxası kimi əbədi həkk olmuşdur. Həmin tarixdən etibarən Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin və şüurun güclənməsinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir.

Azərbaycan Xəzər-Qafqaz coğrafi-strateji arealında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olaraq, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsindən, eləcə də regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Hələ keçmiş SSRİ dövründə, ötən əsr 50-ci illərin sonlarından etibarən Azərbaycan təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli işlər görüldü. Bu proses bilavasitə ömrünün 25 ilini təhlükəsizlik orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1965-ci ildən sonrakı dövrdə orqana milli kadrların cəlb olunması, onların yetişdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. Dünya şöhrətli siyasətçi Heydər Əliyev respublika və ittifaq rəhbərliyində çalışdığı müddətdə belə Azərbaycanın xüsusi xidmət orqanlarının fəaliyyətini daim diqqətdə saxlamış, öz qayğısını bu qurumdan əsirgəməmişdir.

Ulu öndərin dövlətçilik xəttinin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə dövlət idarəetmə sistemində yeni innovativ və kreativ üsulun tətbiqi sayəsində respublikamız bölgədə və dünyada öz mövqelərini möhkəmləndirən nüfuzlu, iqtisadi cəhətdən dinamik inkişaf edən müasir ölkəyə, regionun lider dövlətinə çevrilmişdir.

Şübhəsiz, hazırda Azərbaycanda aparılan uğurlu siyasi-hüquqi və sosial-iqtisadi islahatlar, beynəlxalq təhlükəsizlik sisteminin bütün komponentləri üzrə formalaşdırılmasında fəal iştirak və bu istiqamətində düzgün seçilmiş strateji addımlar ölkənin bütün həyati sahələrində olduğu kimi dövlət təhlükəsizliyi orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi işində də əsaslı dönüş yaratmışdır.

Dövlətimizin başçısı cənab İlham Əliyevin 14 dekabr 2015-ci il tarixli Fərmanına əsasən Azərbaycan xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq, idarəçilik strukturunu təkmilləşdirmək məqsədilə Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətləri təsis olunmuşdur. Bu, müstəqil Azərbaycanın təhlükəsizlik orqanlarının tarixində yeni mərhələnin başlanğıcı, həm də müasir təhdid və hədələrlə mübarizə üzrə qarşıya qoyulmuş vəzifələrin peşəkarlıqla yerinə yetirilməsi baxımından xüsusi xidmətin yeni tələblər səviyyəsində təşkilinə yönəlmiş müdrik bir addımdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) qarşısında müstəqil Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına və təhlükəsizliyinə, iqtisadi, elmi-texniki, müdafiə potensialına və sair milli maraqları əleyhinə yönəlmiş kəşfiyyat, terror-təxribat, digər pozuculuq və cinayətkar fəaliyyəti aşkarlamaq, qabaqlamaq və qarşısını almaq, habelə dövlət sirri təşkil edən məlumatların qorunması kimi son dərəcə məsul vəzifələr durur.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yürüdülən düşünülmüş və qətiyyətli hüquq-mühafizə siyasətinin uğurla həyata keçirilməsi, ictimai-siyasi sabitliyin qorunması istiqamətində DTX digər aidiyyəti dövlət orqanları ilə birgə səmərəli fəaliyyət göstərir. Ölkəmizin beynəlxalq antiterror koalisiyasında iştirakında DTX-nın töhfələri də xüsusi qeyd edilməlidir. Terrorçuluğa qarşı mübarizə istiqamətində beynəlxalq axtarışda olan terrorçuların saxlanılaraq xarici dövlətlərə ekstradisiya olunması, eləcə də Birləşmiş Millətlər Təşkilatı tərəfindən terror təşkilatı kimi tanınmış dini ekstremist cinayətkar birliyin tərkibində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak edərək terror aktları törədən şəxslərin gizli maliyyələşdirilməsinin təsbit edilib qarşısının alınması, terrorçularla əlaqəli müxtəlif bank hesablarının dondurulması və s. bu kimi nəticələrə DTX-nın əməkdaşlarının peşəkarlığı və gərgin əməyi sayəsində nail olunmuşdur.

DTX-nın fəaliyyətinin çevik, səmərəli həyata keçirilməsi və məqsədyönlü surətdə tənzimlənməsi üçün müvafiq normativ hüquqi-bazanın formalaşdırılması və gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bu bazanın təməlini Azərbaycan Respublikasının Konstitusiyası, “Milli təhlükəsizlik haqqında”, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Dövlət sirri haqqında”, “Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, fəaliyyətə aid qanunvericiliyə əsasən qəbul olunan mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, habelə Azərbaycan Respublikasının qanunları çərçivəsində Azərbaycan Respublikası tərəfindən bağlanan beynəlxalq müqavilələr təşkil edir.

Bu fəaliyyət qanunçuluq, humanistlik, insan hüquq və azadlıqlarına hörmət, konspirasiya, aşkar və gizli iş üsullarının uzlaşdırılması, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət edilməsi, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin vahid dövlət siyasətinə əsaslanması və onun təmin olunması istiqamətlərinin əlaqələndirilməsi, beynəlxalq təhlükəsizlik sistemlərində dövlət mənafeləri nəzərə alınmaqla iştirak, insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti prinsiplərinə əməl olunması ilə həyata keçirilir. Ümumiyyətlə, bütün bu müsbət dəyişikliklər dövlət təhlükəsizliyi orqanlarının hüquqi bazasının möhkəmləndirilməsi işinə ölkə rəhbərliyi tərəfindən xüsusi diqqətin yetirildiyinin bariz göstəricisidir.

DTX xüsusi xidmət orqanı olaraq, Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini təşkil edir və həyata keçirir, səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə təhqiqat və ibtidai istintaq aparır.

Sirr deyil ki, Azərbaycanın əldə etdiyi uğurlar, bu nailiyyətləri gözü götürməyən düşmən və rəqib xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin ölkəmizin maraqlarına qarşı fəallaşması ilə müşayiət olunur. Lakin DTX həmin cinayətkar niyyətlər, planlar və əməllər barədə məlumatları əldə edir, milli təhlükəsizliyə real və potensial təhdidləri proqnozlaşdırır, xarici xüsusi xidmət orqanlarının və təşkilatların, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına və təhlükəsizliyinə, iqtisadi, elmi-texniki, müdafiə potensialına və sair milli maraqlarına zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat, digər pozuculuq və cinayətkar fəaliyyətinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə tədbirlər görür.

“Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycanın müstəqil, suveren, demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarının yaradılmasına yönəlmişdir. İnsan hüquq və azadlıqları, cəmiyyətin maddi və mənəvi dəyərləri, dövlətin müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyü Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektləridir. Dövlət təhlükəsizliyi orqanları milli təhlükəsizliyin subyekti kimi fəaliyyətini məhz bu istiqamətləri nəzərə almaqla, habelə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə həyata keçirir.

Sürətli elmi-texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi, informasiya və kommunikasiya texnologiyalarının inkişaf etməsi qlobal informasiya mühitinin yaranmasına, mövcud sərhəd və maneələrin şəffaflaşmasına, əmtəələrin sərbəst beynəlxalq dövriyyəsinə, insanların azad yerdəyişməsinə gətirib çıxarmışdır. Eyni zamanda, bu tendensiya müasir dünyanı beynəlxalq terrorçuluğun, transmilli mütəşəkkil cinayətkarlığın, habelə silah və narkotiklərin qanunsuz dövriyyəsinin, qeyri-qanuni miqrasiyanın doğurduğu yeni təhdidlərlə üzləşdirmiş və hər bir dövlət qarşısında təhlükəli təzahürlərin qarşısının alınması üçün zəruri olan milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi vəzifələrini qoymuşdur. Beynəlxalq kommunikasiyaların hazırkı inkişaf səviyyəsi ölkəmizin maraqlarının təmin olunması məsələsində yeni yanaşmalar tələb edir ki, bu da qəbul olunmuş normativ-hüquqi aktlarda öz əksini tapır. DTX beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlığın digər təhlükəli formaları, habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi ilə qətiyyətlə mübarizə aparır. Məhz bu sahə üzrə DTX-nın fəaliyyətinin hüquqi əsaslarından birini “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunları təşkil edir. Bu qanunlar Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, terrorçuluğa qarşı mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edir. Eyni zamanda, həmin qanunlara edilmiş son dəyişikliklər terrorçuluğa qarşı mübarizə tədbirlərinin təkmilləşdirilməsinə yönəlmiş, bu istiqamətdə aparılan prosessual hərəkətlərin effektivliyini artırmışdır.

Qeyd etmək yerinə düşər ki, 2018-ci ilin dekabr ayında Avropa Şurasının MONEYVAL Komitəsi pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı Azərbaycan Respublikasının mübarizə sistemini müsbət dəyərləndirərək, ölkədə bu sahədə aparılmış islahatlara yüksək qiymət vermiş, institusional potensialın gücləndirilməsi, hüquqi bazanın, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi ilə əlaqədar əldə edilmiş nailiyyətləri xüsusi olaraq vurğulamışdır.

DTX-nın fəaliyyətində prioritet istiqamətlərdən biri də dini ekstremizmə qarşı mübarizədir. “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi milli, sosial və dini nifrətin kök salmasının, milli ləyaqətin alçaldılmasının, irqi, sosial və dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasının və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsinin qarşısının alınmasına xidmət edir.

Hazırda dövlət təhlükəsizliyinin mühüm komponentləri sırasında kibertəhlükəsizliyin xüsusi yeri vardır. İnformasiya texnologiyalarının sürətlə həyatın daha çox sahələrinə daxil olması kibercinayətkarlıq, xüsusən onun təhlükəli forması olan kiberterrorçuluq risklərini də artırır. Bu baxımdan, ölkəmizdə kibercinayətkarlıqla mübarizənin təminatı üçün əhatəli qanunverici baza yaradılmışdır. Azərbaycan Respublikası Avropa Şurasının “Kibercinayətkarlıq haqqında Konvensiya”sını imzalamış və bu Konvensiyanın təsdiq edilməsi barədə 30 sentyabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Konvensiyanın tələblərinə uyğun olaraq, 2009-2017-ci illər ərzində Azərbaycan Respublikası Cinayət Məcəlləsində də müvafiq dəyişikliklər edilmişdir.

“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa və “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 yanvar 2005-ci il tarixli Fərmanına əsasən, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin əsas subyektlərindən biri DTX-dır.

Əks-kəşfiyyat fəaliyyəti - xarici xüsusi xidmət orqanlarının, təşkilatların və ayrı-ayrı şəxslərin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına və digər milli maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınması məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyətdir. Əks-kəşfiyyat fəaliyyəti Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsinə mane olan və ya bu maraqlara təhlükə yaradan şərait, proses və amillərdən qorunmasına yönəlmişdir.

Dünyada baş verən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatçılıq və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üzləşir. Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu baxımdan, habelə Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarının müəyyən edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası” təsdiq olunmuşdur.

DTX-nın fəaliyyətində istinad edilən mühüm normativ-hüquqi akt kimi 2010-cu ilin iyun ayının 8-də qəbul edilən Azərbaycan Respublikasının Hərbi doktrinasını da qeyd etmək olar. Hərbi doktrina milli təhlükəsizliyin təminatı strategiyasının tərkib hissəsi olaraq insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici, hərbi və digər təhdidlərdən qorunmasına yönələn hərbi təhlükəsizlik sisteminin konseptual əsasını müəyyənləşdirən sənəddir.

Ölkənin təhlükəsizliyini təmin etmək məqsədi ilə məlumatların dövlət sirrinə aid edilməsi, mühafizəsi və istifadə edilməsi, onların məxfiləşdirilməsi və ya məxfiliyinin açılması ilə əlaqədar yaranan münasibətləri “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanunu tənzimləyir. Müvafiq qanunla nəzərdə tutulmuş dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin təmin olunmasına idarələrarası nəzarət səlahiyyətlərini DTX həyata keçirir. Təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətlərindən biri kimi dövlət sirrinin mühafizəsi Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır.

DTX-nın əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sistemini tənzimləyən normativ-hüquqi akt “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunudur. Qanunda qeyd olunan 18 əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi səlahiyyəti həm birbaşa, həm də digər hüquq-mühafizə orqanları ilə birlikdə DTX-ya həvalə olunmuşdur.

DTX-nın qarşısında duran əsas vəzifələrdən biri də narkotik vasitələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsinin qarşısının alınmasıdır. Narkotik vasitələrin qanunsuz dövriyyəsi və əsasən də gənclər arasında narkomanlığın miqyasının artması, cəmiyyət və dövlətin təhlükəsizliyini təhdid edən ciddi faktorlardan biridir. “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanunu bu sahədə hüquqi-profilaktik tədbirlərin, hüquq-mühafizə orqanlarının fəaliyyət dairəsini və səlahiyyətini özündə ehtiva edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və əlaqəli normativ-hüquqi aktlara edilmiş dəyişikliklərlə dini ekstremist materialları hazırlama, saxlama, yayma və ya bu əməlləri maliyyələşdirmə, dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozma, dənizdə yerləşən stasionar platformaların təhlükəsizliyinə təhdid yaradan əməllər, radioaktiv materiallarla qanunsuz davranma, radioaktiv materialları talamaqla hədələmə, sertifikatlaşdırılmamış rabitə vasitələrinin satışının təşkili, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi üçün rabitə müəssisələrinin vəzifəli şəxsləri tərəfindən zəruri şəraitin yaradılmaması və aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər kimi cinayətlərin müəyyən edilməsi, qarşısının alınması, istintaqının aparılması vəzifəsi DTX tərəfindən həyata keçirilir.

Xüsusi xidmət və hüquq-mühafizə orqanlarının fəaliyyətini təmin etmək məqsədilə əsaslı, müasir dövrün çağırışlarına cavab verən normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi möhtərəm Prezident İlham Əliyevin müstəqil Azərbaycanın təhlükəsizlik strategiyasının daha da inkişaf etdirilməsi üzrə apardığı uğurlu siyasi xəttin əyani nümunəsidir.

Mart ayının 28-də Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi tamam olur. Bu tarixin dövlət təhlükəsizliyi orqanları əməkdaşları tərəfindən peşə bayramı günü kimi qeyd edilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Yaradılmasından ötən qısa müddət ərzində DTX-nın fəaliyyətində bütün sahələr üzrə əlamətdar hadisələr müşahidə olunmuşdur. Zəruri islahatlar aparılmış, əməliyyat-xidməti fəaliyyətdə önəmli uğurlar qazanılmışdır. DTX-da Azərbaycanın maraqlarının və təhlükəsizliyinin etibarlı qorunması üzrə mövcud qanunvericilik əsasında normativ-hüquqi bazanın təkmilləşdirilməsi işi daim davam etdirilir.

Silahlı Qüvvələrin Ali Baş Komandanının əmr və göstərişlərini dərhal və vicdanla yerinə yetirən DTX-nın dövlət təhlükəsizliyi əleyhinə hədə və təhdidlərin aşkarlanması, qabaqlanması və qarşısının alınması sahəsində respublikanın digər hüquq-mühafizə orqanları və aidiyyəti qurumları ilə sıx əməkdaşlığının bariz nəticəsi kimi keçirilən birgə əməliyyatlar sayəsində çoxsaylı cinayətlərin qarşısı qətiyyətlə alınır və təhlükəsizlik təmin edilir.

Azərbaycan Respublikasının təhlükəsizliyi dedikdə, insan - onun hüquq və azadlıqları, cəmiyyət - onun maddi və mənəvi dəyərləri, dövlət - onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyünün təmin edilməsi başa düşülür.

Qətiyyətlə əminik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan Respublikasının maraqlarının, mənafelərinin və təhlükəsizliyinin etibarlı təmin olunmasında Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları əzmkarlıq nümayiş etdirərək, bundan sonra da daim ön sırada olacaqlar.

**Tamerlan RƏHİMOV.**

*Zeynal Nağdəliyev:*

# Yarmarkalarda satışa çıxarılan məhsullar bazar qiymətlərindən 30-40 faiz ucuzdur



**Novruz bayramı ilə əlaqədar keçirilən yarmarkalarda satışa çıxarılan məhsullar bazar qiymətlərindən 30-40 faiz ucuzdur.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev martın 2-də paytaxtın Hüseyn Cavid prospektində təşkil olunmuş yarmarkada jurnalistlərə açıqlamasında deyib.

Prezidentin köməkçisi deyib ki, dövlətimizin başçısı İlham Əliyevin birbaşa tapşırığı əsasında paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Yarmarkalarda satışa çıxarılan əksər məhsullar topdansatış qiymətindən 20 faiz, bazar qiymətlərindən isə 30-40 faiz ucuzdur. Həmçinin yarmarkalarda satışa çıxarılan bəzi məhsulların qiyməti bazar dəyərindən 2 dəfədən çox aşağıdır.

Zeynal Nağdəliyev qeyd edib ki, yarmarkalarda çeşidlər daha da genişləndirilməli və keyfiyyət məsələsi də diqqətdə saxlanılmalıdır. Təşkil edilən bu yarmarka əhalinin bayram əhval-ruhiyyəsinə müsbət təsirini göstərəcək. Bu, dövlətimizin başçısının xalqımızın rifahı üçün atdığı növbəti addımdır.

AZƏRTAC

# Azad Rəhimov UNESCO-ya üzv ölkələrin idman nazirlərinin qeyri-rəsmi görüşündə iştirak edib

**Rusiya Federasiyasının Krasnoyarsk şəhərində "XXIX Qış Universiadası 2019" çərçivəsində UNESCO-ya üzv ölkələrin idman nazirlərinin qeyri-rəsmi görüşü keçirilir. Tədbirdə Azərbaycanı gənclər və idman naziri Azad Rəhimov təmsil edir.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, UNESCO-nun baş direktorunun müavini Nada Al-Naşif, Rusiya Federasiyasının idman naziri Pavel Kolobkov və digər rəsmilər də toplantıya qatılıblar.

Tədbirdə çıxış edən Azad Rəhimov bildirib ki, bədən tərbiyəsi və idman Azərbaycanın sosial siyasətində mühüm istiqamətlərdəndir. Azərbaycan dövləti bu sahəyə xüsusi diqqət ayırır. Azərbaycanın son illərdə birinci Avropa, IV İslam Həmrəyliyi oyunlarına, Formula 1 yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, dünya və Avropa çempionatlarına və digər mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi etdiyini bildirən Azad Rəhimov ölkəmizdə Kazan Bəyannaməsi, xüsusilə "Hərəkat 2: dayanıqlı inkişaf" üzrə əsas məqsədlərə nail olunmasına, fiziki tərbiyənin və idmanın inkişafına xüsusi diqqət yetirildiyini bildirib.

Nazir deyib: "Son iki ildə Azərbaycanda bədən tərbiyəsi və idman sahələrində təhsilin inkişafı üçün mühüm işlər görülüb. 2017-ci ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında bakalavr səviyyəsində "Məşqçi" (seçilmiş idman növü üzrə), "Bədən tərbiyəsi üzrə müəllim", "İdman menecmenti və kommunikasiya", "Bədən tərbiyəsi və idmanda reabilitasiya" üzrə dörd yeni ixtisas dərəcəsi, eyni zamanda, magistratura səviyyəsində ingilis dilində "Tibbi idman və reabilitasiya", "İdman menecmenti", "İdman jurnalistikası" ixtisasları açılıb. Bu ixtisaslar yerli və London Kollec Universitetinin (UCL) əcnəbi mütəxəssisləri tərəfindən yüksək səviyyədə tədris edilir".

Nəzəriyyənin təcrübədə tətbiqi istiqamətində uğurlu addımların atıldığını bildirən nazir Kazan Bəyannaməsindən irəli gələn digər müddəaların - idmanın bütövlüyü, qadın, uşaq və gənclərin idmana cəlb olunmasının uğurla həyata keçirilməsindən, Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2013-2020-ci illər üzrə Milli Strategiyanın icrasından danışıb. Azad Rəhimov, həmçinin Gənclər və İdman Nazirliyinin 2018-ci ildən Avropa Şurasının və Avropa İttifaqının "Hamı birlikdə - idmanda gender bərabərliyinə nail olunması" proqramına qoşulduğunu vurğulayıb və bu istiqamətdə görülən işlər barədə iştirakçılara ətraflı məlumat verib.

AZƏRTAC

*Elmar Məmmədyarov:*

# Azərbaycan Fələstin xalqının sülh uğrunda mübarizəsini dəstəkləyir

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 46-cı sessiyası çərçivəsində BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin (UNRWA) rəhbəri Pyer Krahenbul ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Pyer Krahenbulu BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin yenidən rəhbəri seçilməsi münasibətilə təbrik edib, ona yeni dövr fəaliyyətində uğurlar arzulayıb. Nazir Elmar Məmmədyarov Azərbaycanın qardaş Fələstin xalqının sülh, sabitlik və dayanıqlı inkişafa nail olmaq yolunda mübarizəsində dəstəklədiyini vurğulayaraq, ölkəmizin Fələstin məsələsinin, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla, "iki dövlət" həllini davamlı olaraq dəstəklədiyini ifadə edib. Həmçinin nazir Elmar Məmmədyarov Qüds ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mövcudluğunu xatırladıb.

BMT Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinin rəhbəri Pyer Krahenbul, öz növbəsində, səmimi təbrikə görə təşəkkürünü bildirib, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi münasibətilə nazir Elmar Məmmədyarovu təbrik edib.

Sonra P.Krahenbul ABŞ tərəfindən UNRWA-ya edilən yardımların dayandırılmasından sonra İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr tərəfindən göstərilən yardımları yüksək qiymətləndirib və bu xüsusda, Azərbaycan tərəfinə Agentliyin fəaliyyətinə verdiyi dəstək və maliyyə yardımı üçün təşəkkürünü bildirib. Fələstin münaqişəsinin həlli ilə bağlı fikirlərini bölüşən P.Krahenbul münaqişənin həllinin 5 milyon fələstinli qaçqının probleminin həllinə zəmin yaradacağını vurğulayıb.

Tərəflər arasında, həmçinin qarşılıqlı maraq və narahatlıq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Yasamal rayonunda Novruz yarmarkası açılıb







**Martın 2-də Yasamal rayonunda Hüseyn Cavid prospektində, Azərbaycan Milli Elmlər Akademiyasının binasının qarşısındakı parkda Novruz yarmarkası açılıb.**

AZƏRTAC xəbər verir ki, yarmarkada respublikamızın müxtəlif bölgələrindən olan fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edirlər. Məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunur.

Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev yarmarkanın fəaliyyəti ilə tanış olub. Satıcılarla, fermerlərlə söhbət edən Zeynal Nağdəliyev onlara yaradılan şəraitlə, satışa çıxarılan məhsulların qiymətləri ilə maraqlanıb. Qeyd edib ki, dövlətimizin başçısının tapşırığı əsasında təşkil edilən bu yarmarkalarda məqsəd fermerlərin, sahibkarların öz məhsullarını əlverişli şəraitdə yarmarkada sata bilmələri, əhalinin isə ucuz qiymətə bu məhsulları almasıdır. Yarmarkalarda qiymət bazarlardakından xeyli ucuzdur.

Yarmarka ilə tanışlıq zamanı bildirilib ki, ölkəmizdə aqrar sahəyə, o cümlədən fermerlərə göstərilən dövlət dəstəyi əhalinin məşğulluğunun təmin olunması, insanların sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, həm də məhsul bolluğu yaradır. Belə tədbirlər əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında, süni qiymət artımının qarşısının alınmasında və istehlakçıların seçim imkanlarının artırılmasında mühüm rol oynayır.

Kənd təsərrüfatı məhsullarının satış yarmarkaları da bu məqsədə xidmət edir. Yarmarkada satıcı və alıcıların rahatlığının təmin olunması üçün əlverişli ticarət mühiti yaradılıb. Fermerlər, sahibkarlar və kənd təsərrüfatı məhsulları istehsalçıları məhsullarını satmaq üçün yarmarkaya gətirir və münasib qiymətlərlə alıcılara təklif edirlər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əhalinin tələbatı nəzərə alınaraq Bakı şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında respublikanın 42 rayonundan 52 adda məhsul çıxarılacaq.

AZƏRTAC



# Novruz bayramı ərəfəsində yarmarkaların keçirilməsi bazarda məhsul bolluğu yaradır

## *Səbail rayonunda Novruz yarmarkası açılıb*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında Bakı şəhərində Novruz bayramı münasibətilə kənd təsərrüfatı məhsullarının satış-yarmarkaları fəaliyyətə başlayıb. Yarmarkalar paytaxtın 14 yerində təşkil olunub. Yarmarkalara Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş fermerlər öz məhsullarını çıxarıblar. Yasamal, Nizami, Xəzər və Səbail rayonlarında yarmarkalar Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov martın 2-də Səbail rayonunda keçirilən yarmarkanın fəaliyyəti ilə tanış olub, fermerlərlə görüşüb, qiymətlərlə maraqlanıb.

Jurnalistlərə açıqlama verən İnam Kərimov bildirib ki, Novruz bayramı ərəfəsində yarmarkaların keçirilməsində məqsəd bazarda məhsul bolluğu yaratmaqdır: "Bu yarmarkalar Prezidentin göstərişi əsasında keçirilir. Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə keçirdiyimiz yarmarkalar "Kənddən Şəhərə" brendi altında təşkil olunur. Bu yarmarkaların əsas xüsusiyyəti odur ki, fermerlər öz məhsullarını vasitəçi olmadan, birbaşa alıcılara təqdim edirlər. Yarmarkaya məhsul çıxaran fermerlər vahid geyim formasından istifadə edir. Burada sanitar-gigiyenik normalara ciddi əməl olunur. Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları bütün yarmarkalarda müvafiq nəzarəti həyata keçirirlər. Hesab edirik ki, bu cür yarmarkaların təşkili nəticəsində həm bolluq olacaq, həm fermerlər öz məhsullarını satmaq üçün yeni imkan əldə edəcək, həm də alıcılar keyfiyyətli məhsulları daha ucuz almaq imkanı qazanacaqlar".

Qeyd edək ki, martın 2-dən başlayaraq paytaxtın bütün rayonlarında hər həftənin şənbə və bazar günləri kənd təsərrüfat məhsullarının satış-yarmarkaları keçiriləcək. Novruz bayramı ərəfəsində isə yarmarkalar martın 16-dan 21-dək davam edəcək.

AZƏRTAC



# Gürcüstan Prezidenti soydaşlarımızın müraciətinə cavab verib

**Gürcüstan Prezidenti Salome Zurabişvili Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) müraciətinə müsbət cavab verib.**

GAK sədri Hüseyn Yusubov AZƏRTAC-a bildirib ki, dövlət başçısı soydaşlarımızın prezident administrasiyasında və digər dövlət və hökumət strukturlarında işlə təmin olunması təklifini müsbət dəyərləndirib.

Administrasiyadan konqresə daxil olan məktubda deyilir ki, dövlət başçısı gürcü dilini mükəmməl bilən, ali təhsilli gənclərin dövlət strukturlarında işlə təmin olunmasında maraqlıdır. Bu baxımdan administrasiya konqres rəhbərliyi ilə görüşüb məsələni dərindən müzakirə etmək istəyir və azərbaycanlı gəncləri müsabiqəyə dəvət edir.

Xatırladaq ki, GAK sədri Hüseyn Yusubov Prezident Salome Zurabişviliyə müraciət edərək gürcü dilini və xarici dilləri bilən, ali təhsilli azərbaycanlı gənclərin prezident administrasiyasında işə cəlb olunmalarını təklif etmişdi.

AZƏRTAC

*İranlı deputat:*

# Dağlıq Qarabağda məscidi tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi

**Dağlıq Qarabağ Azərbaycana məxsus bölgədir və Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşaraq işğalçılıqdan əl çəkməlidir.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində İran İslam Şurası Məclisinə (parlamentə) Urmiya şəhərindən seçilmiş deputat Hadi Bahaduri deyib. Deputat Ermənistan baş nazirinin Xocalı soyqırımının ildönümü ərəfəsində İrana səfərinə yol verildiyi üçün Xarici İşlər Nazirliyini kəskin tənqid edib.

O, İran İslam Respublikası Ali Rəhbərinin də mövqeyini xatırladaraq qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycan və İslam torpağıdır. İran Azərbaycan ilə münasibətlərinə xələl gəlməsini istəmir. İki qonşu və dost dövlət arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Xarici İşlər Nazirliyi bu səfərin Xocalı soyqırımının ildönümü ərəfəsində baş tutmasına icazə verməməli idi.

Deputat deyib: "Hesab edirəm ki, bu səfər başqa bir vaxtda da keçirilə bilərdi. Biz Ermənistanla həmsərhəd ölkələrik. Ona görə də bu ölkə ilə əlaqələrimizin olması təbiidir. Amma bu əlaqələr İranın rəsmi siyasətinə uyğun olmalıdır. Biz parlamentdə xarici işlər nazirinə sual ünvanlayacağıq. Nazirlik açıqlamalıdır ki, nə üçün İranın sərhədləri daxilində onun rəsmi siyasətinin əleyhinə belə bir hadisə baş verib?".

Hadi Bahaduri vurğulayıb ki, dini inancımıza görə, dünyanın istənilən yerində müsəlmanların haqqı müdafiə olunmalıdır: "Dağlıq Qarabağda müsəlmanların məscidini tövləyə çevirənlərin İrana səfər etməsinə icazə verilməməli idi".

AZƏRTAC

*Eldar Əzizov:*

# Prezident İlham Əliyevin sosial rifahın yaxşılaşdırılması ilə bağlı qərarlarının dünyada analoqu yoxdur



**Son günlər Prezident İlham Əliyev ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılması ilə bağlı bir sıra qərarlar qəbul edib. Bu qərarların dünyada analoqu yoxdur.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.

Eldar Əzizov bildirib ki, həmin qərarlardan biri də Prezidentin problemli kreditlərin həlli ilə bağlı imzaladığı Fərmandır. İcra başçısı deyib: “Bu, adi məsələ deyil. Birincisi, bu, onu göstərir ki, Azərbaycan iqtisadi baxımdan qüdrətli ölkə kimi formalaşıb, bu cür qərarlar verməyə qadirdir. Ölkəmiz inkişaf edir, sabitlik hökm sürür. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, bu qərar tarixi nailiyyət və dövlətimizin başçısının uğurlu siyasətinin nəticəsidir. Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakteri daşıyır”.

**AZƏRTAC**

# Maştağa qəsəbəsi sakinlərinin problemləri dinlənilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Sabunçu rayonu, Maştağa qəsəbəsinin sakinləri ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüş sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunub.

Görüşdə çıxış edən Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi sakinlərlə ilk görüşünü məhz böyük tarixə malik Maştağa qəsəbəsində keçirdiyini bildirib.



Bu gün paytaxtımızın sürətlə inkişaf etdiyini, onun müasir görkəm aldığını vurğulayan icra hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamların, qəbul olunmuş Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində Bakı şəhəri və onun qəsəbələrində xeyli sayda yeni məktəb, uşaq bağçası, tibb müəssisələri tikilib, köhnələri əsaslı təmir olunub. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilən “Abad məhəllə” layihəsi çərçivəsində son 6 ay ərzində 50-dən çox məhəllə əsaslı təmir olunub və bu işlər hazırda da davam etdirilir. Həmçinin paytaxtımızdakı çoxmənzilli binaların dam örtükləri, girişləri, fasadları əsaslı təmir olunur. “Dövlətimizin başçısı qarşıya paytaxtın qəsəbələrinin də daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub. Prezident İlham Əliyevin tapşırığı əsasında Bakı şəhəri və onun qəsəbələrinin inkişafı ilə bağlı xüsusi proqram hazırlanır”, - deyə icra başçısı vurğulayıb.

Azərbaycan Prezidenti tərəfindən əhalinin sosial təminatının gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində imzalanan yeni fərman və sərəncamlar barədə danışan icra başçısı bildirib ki, dövlətimizin başçısının həyata keçirdiyi sosial siyasətin, bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır.

Sonra Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Maştağa qəsəbəsi üzrə nümayəndəsi Şamil Alıyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Qeyd edib ki, dövlətimizin başçısının düşünülmüş siyasəti sayəsində Azərbaycan sürətlə inkişaf edir, yeni sənaye sahələri yaradılır, insanların rifah halı gündən-günə yaxşılaşır.

Maştağanın Sabunçu rayonunun ən böyük qəsəbələrindən biri olduğunu bildirən Şamil Alıyev buradakı mövcud infrastruktur obyektləri, tarixi abidələr barədə ətraflı məlumat verib. Bildirib ki, son illər bütün ölkə ərazisində olduğu kimi, qəsəbədə də təhsil, səhiyyə, sənaye və digər sahələrdə mühüm nailiyyətlər əldə edilib.

“Açıq mikrofon” formatında sakinlərin böyük fəallığı ilə keçən görüşdə çıxış edən maştağalılar Bakı şəhərində, eyni zamanda, Maştağa qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlətimizin başçısının həyata keçirdiyi siyasi kursa dəstək ifadə ediblər.

Görüşdə 35 nəfər sakin çıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib.

Bu kimi görüşlərin digər qəsəbələrdə də keçirilməsi nəzərdə tutulub.

**AZƏRTAC**

# Novruz bayramı ilə əlaqədar Nərimanov rayonunda kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində, o cümlədən Nərimanov rayonunda F.X.Xoyski prospektindəki Qələbə meydanında (metronun Gənclik stansiyasının çıxışı) Novruz yarmarkası fəaliyyətə başlayıb.**



AZƏRTAC xəbər verir ki, yarmarkada respublikamızın müxtəlif rayonlarından gətirilmiş 100-ə yaxın çeşiddə kənd təsərrüfatı məhsulları təzə və keyfiyyətli olmaqla, eyni zamanda, bazarlardakından ucuz qiymətə əhaliyə təqdim olunur. Ayrılan yer müasir standartlara uyğun və qapalı formada təşkil edilib, istehlakçılar və fermerlər üçün daha əlverişli ticarət mühiti yaradılıb, habelə kənd təsərrüfatı məhsulları istehsalçılarının topdan və pərakəndə satış bazarlarına çıxış imkanlarının genişləndirilməsi təmin olunub. Yarmarkada müvafiq şəraitin yaradılması, əhali və fermerlər üçün əlverişli ticarət mühitinin formalaşdırılması, sui-istifadə hallarının aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülüb.

Yarmarkanın fəaliyyəti ilə tanış olan Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, hazırda ölkəmizdə aparılan uğurlu iqtisadi islahatlar nəticəsində bazarda qiymətlər tənzimlənir. Bu cür satış yarmarkalarının keçirilməsində əsas məqsəd sakinləri seçim müxtəlifliyi ilə təmin etmək, sərfəli qiymətlərlə keyfiyyətli məhsullar təqdim etməkdir. Hazırda Azərbaycanda bu istiqamətdə işlər davam etdirilir. Görülən bütün işlər bir daha sübut edir ki, Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakteri daşıyır.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı deyib ki, Novruz yarmarkalarının keçirildiyi müddətdə qiymətlərin tənzimlənməsinə nəzarət ediləcək. O, həmçinin diqqətə çatdırıb ki, belə yarmarkalar tez-tez təşkil olunacaq.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Yarmarkalarda respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edirlər.

**AZƏRTAC**

# Şəmkir: körpələr evi-uşaq bağçası üçün yeni bina





**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov və Milli Məclisin deputatı Sahibə Qafarova yenidən qurulan 100 yerlik Şəmkir şəhər 8 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edərək yaradılan şəraitlə tanış olublar.**

Tədbirdə çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov yeni bağçanın açılışı münasibətilə şəhər sakinlərini təbrik edərək bildirib ki, burada uşaqların təlim və tərbiyəsi ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb.

İcra başçısı qeyd edib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlara xüsusi diqqət göstərməsi ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamı və məntiqi nəticəsidir.

Milli Məclisin deputatı Sahibə Qafarova isə çıxışında bildirib ki, uşaqların keyfiyyətli təhsil alması və hərtərəfli qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir.

Əsaslı təmir olunan, müasir tələblərə cavab verən bu binada uşaqların təlim-tərbiyəsi, ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması üçün hər cür şərait yaradılıb, otaqlar bütün zəruri ləvazimat və təlim avadanlıqları ilə təchiz olunub.

Sonda RİH başçısı Alimpaşa Məmmədov, Milli Məclisin deputatı Sahibə Qafarova və qonaqlar uşaqlar üçün yaradılmış şəraitlə tanış olublar.

Qeyd edək ki son dörd il ərzində Şəmkir rayonunda 10-dan çox körpələr evi-uşaq bağçası əsaslı təmir edilib və yenidən tikilərək körpələrin istifadəsinə verilib.

**Eyvaz HƏMİD,**
**“Respublika”.**

# YUNESKO-nun “İnformasiya hamı üçün” Proqramının Azərbaycan Komitəsinin 1-ci iclası keçirilib

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (NRYTN) YUNESKO-nun “İnformasiya hamı üçün” Proqramının (İFAP) Azərbaycan Komitəsinin ilk iclası keçirilib. İclasda Milli Komitədə təmsil olunan dövlət qurumlarının, o cümlədən Xarici İşlər, Mədəniyyət, Təhsil, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi, Milli Arxiv İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Elmin İnkişafı Fondu və Əqli Mülkiyyət Agentliyinin nümayəndələri iştirak ediblər.

İclasda çıxış edən IFAP-ın Azərbaycan Komitəsinin sədri, NRYTN-in İnformasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri Rəşad Əzizov IFAP proqramının ölkəmizin xaricdə tanıdılması və təbliği baxımından əhəmiyyətindən, 2018-ci ildə görülmüş işlər və qarşıda duran tədbirlər haqqında məlumat verib.

O bildirib ki, “İnformasiya hamı üçün” Proqramı YUNESKO-nun 2001-ci ildə yaradılan unikal hökumətlərarası proqramıdır. IFAP-in əsas məqsədi üzv ölkələrdə informasiyaya çıxışı təkmilləşdirməkdən ibarətdir. Ümumilikdə 59 ölkədə IFAP Milli Komitəsi fəaliyyət göstərir. Proqram 6 prioritet sahəni - “İnformasiyaya çıxış” (“Information access”), “İnkişaf üçün informasiya” (Information for development”), “İnformasiya etikası” (“Information ethics”), “İnformasiya savadlılığı” (“Information literacy”), “İnformasiyanın qorunması” (“İnformation preservation”), “Kibeməkanda çoxdillilik” (“Multilingualism in Cyberspace”) məsələlərini özündə birləşdirir.

Rəşad Əzizov onu da qeyd edib ki, Azərbaycanda IFAP Milli Komitəsi 2008-ci ildən fəaliyyət göstərir. 2018-ci ildən isə İFAP-ın Azərbaycan Komitəsinin NRYTN-in tərkibində fəaliyyət göstərməsi haqqında qərar qəbul olunub. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədri tərəfindən 11 sentyabr 2018-ci il tarixində YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yanında YUNESKO-nun “İnformasiya hamı üçün” Proqramının Azərbaycan Komitəsinin yeni Əsasnaməsi, 29 yanvar 2019-cu il tarixində isə NRYTN tərəfindən hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılmış “YUNESKO-nun “İnformasiya hamı üçün” Proqramının Azərbaycan Komitəsinin 2019-2021-ci illər üçün Tədbirlər Planı” təsdiq edilib.

İclasda sözügedən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün görüləcək işlərin müzakirəsi aparılıb.

**Əli SADIQOV,**
**“Respublika”.**

*5 Mart Bədən Tərbiyəsi və İdman Günüdür*

# İdmançılarımızın uğurları yeni qələbələrə stimul verir

**Hər il martın 5-i ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Bu tarixi gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamı ilə təsis edilmişdir. Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Belə ki, 1995-ci il martın 5-də ümummilli lider Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, həmçinin İdman Fondunun yaradılması haqqında sərəncam imzalamışdır. Bununla da müstəqilliyimizin ilk illərindən başlayaraq ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməli qoyulmuşdur.**

Xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyev məktəbinin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti işləyərkən - 1997-ci il iyul ayının 31-də Milli Olimpiya Komitəsinin rəhbəri seçildikdən sonra ölkəmizdə bədən tərbiyəsi və idman, o cümlədən olimpiya hərəkatı yeni bir mərhələyə qədəm qoydu. Son 15 il ərzində dövlət başçısının bu sahəyə göstərdiyi diqqət və qayğısı, şəxsi dəstəyi sayəsində ölkəmizdə idmanın inkişafı geniş vüsət almışdır. Bu gün Azərbaycan dünyada idman dövləti kimi tanınır. Bunu Bakıda və bölgələrdə idman sahəsində yaradılan maddi-texniki baza ilə yaxından tanış olan və mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi etməsini izləyən beynəlxalq qurumların rəhbərləri də təsdiqləyirlər. Azərbaycanda son illər güclü idman infrastrukturu yaradılmışdır. Təkcə Bakının 2015-ci il ilk Avropa Oyunlarına və “Bakı 2017” IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi bu dediyimizin əyani sübutudur. Həm də bu yarışların yüksək səviyyədə başa çatması Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın gərgin əməyinin bəhrəsidir. Azərbaycan müstəqillik qazandıqdan sonra qatıldığı Yay Olimpiya Oyunlarında yeni-yeni qələbələrə imza atmışdır. Belə ki, idmançılarımız 1996-cı ildə Atlantada (ABŞ) 1, 2000-ci ildə Sidneydə (Avstraliya) 3, 2004-cü ildə Afinada (Yunanıstan) 5, 2008-ci ildə Pekində (Çin) 7, 2012-ci ildə Londonda (Böyük Britaniya) 10, 2006-cı ildə Rio-de Janeyroda (Braziliya) 18 medal qazanmışlar.

Hər ötən ili uğurla başa vurmaq artıq idmançılarımız üçün bir ənənəyə çevrilmişdir. Qeyd edək ki, 2018-ci il dekabrın 13-də Milli Olimpiya Komitəsində ötən ilin idman yekunlarına həsr olunan mərasim keçirilmişdir. Dövlətimizin başçısı mərasimdə həm çıxış etmiş, həm də bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim etmişdir. Azərbaycan Prezidenti çıxışında demişdir: “İlə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm”.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 2018-ci il üçün təsdiq etdiyi Tədbirlər Planına əsasən respublikada fəaliyyət göstərən federasiyalar ilə birlikdə ölkəmizdə 225 respublika yarışları təşkil edilmiş, 58 beynəlxalq yarış keçirilmiş, 236 beynəlxalq yarışlarda ölkə yığma komandalarının iştirakı təmin olunmuşdur.

2018-ci ildə dünya, Avropa çempionat və birinciliklərində, kubok yarışlarında və beynəlxalq turnirlərdə 263 - qızıl, 230 - gümüş və 260 - bürünc olmaqla ümumilikdə medal əldə edilmişdir. Bundan 313-ü (85 qızıl, 90 gümüş, 138 bürünc) Olimpiya proqramı, 440-ı (178 qızıl, 140 gümüş, 122 bürünc) qeyri-olimpiya proqramı üzrə qazanılmışdır.

İdman növləri üzrə yığma komandalar 12 gündən az olmayaraq 100-dən çox təlim-məşq toplanışında iştirak etmişlər.

Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak etmək üçün idmançılarımız tərəfindən 17 lisenziya əldə edilmiş və 3 qızıl, 1 gümüş və 3 bürünc medal, ümumi 7 medal qazanılmışdır.

Ötən il ərzində sərbəst və yunan-Roma güləşi üzrə Müşfiq İsayevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir, kişi və qadın gimnastikası üzrə dünya kuboku, Mingəçevir şəhəri “Kür” Olimpiya Tədris-İdman Mərkəzində akademik, kayak və kanoe qayıqlarında avarçəkmə üzrə “Prezident Kuboku” beynəlxalq reqatası, Milli Gimnastika Arenasında batut, tamblinq və mini-batut gimnastikası üzrə 26-cı Avropa çempionatı, akrobatika gimnastikası üzrə dünya kuboku, Bakı şəhərində Türk Şurasına üzv dövlətlərin Universitet İdman Oyunları, Formula 1 üzrə “Azərbaycan Qran-Pri” yarışı, şahmat üzrə dünya çempionu, norveçli Maqnus Karlsenin iştirakı ilə “Shamkir Chess-2018” beynəlxalq super-turnir, Naxçıvan şəhərində “Naxçıvan Open-2018” beynəlxalq şahmat festivalı, velosiped idmanının BMX növü üzrə dünya çempionatı, Yeniyetmələrin Olimpiya Oyunlarına idman gimnastikası üzrə təsnifat yarışları, paytaxtda cüdo üzrə dünya çempionatı, Bakıda Beynəlxalq Gimnastika Federasiyasının ali orqanı olan Konqresin iclası, Bakı şəhərində mas-reslinq üzrə Avropa çempionatı və s. tədbirlər yüksək səviyyədə təşkil edilərək keçirilmişdir. Bundan əlavə, 24-28 sentyabr 2018-ci il tarixində Bakı şəhərində Beynəlxalq Xüsusi Olimpiya Hərəkatının 50 illik yubileyi ilə əlaqədar olaraq Gənc Liderlərin Qlobal Forumu keçirilmişdir. Yubiley tədbirləri çərçivəsində YUNİFİED (Birləşmiş idman) layihəsi üzrə təlimlər, fəxri qonaqlar və ulduzlardan ibarət mini-futbol komandası ilə atletlərdən ibarət futbol komandası arasında oyun Bakı İdman Sarayında baş tutmuşdur.

Aprel ayında İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin gənclər və idman nazirlərinin 4-cü konfransı, noyabr ayında isə Ümumdünya Antidopinq Agentliyinin İcraiyyə Komitəsinin ümumi yığıncağı və Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirilmişdir.

Nazir müavini Fərhad Hacıyev 11-12 may 2018-ci il tarixində Serbiya Respublikasının Belqrad şəhərində keçirilmiş “Milli Olimpiya Komitələrinin Oyunların Təşkili ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya Komitələrinin 39-cu seminarı”nda iştirak etmişdir. Tədbir çərçivəsində 2019-cu ildə keçiriləcək Yeniyetmələrin Avropa Olimpiya Festivalına Bakının ev sahibliyi etməsi ilə bağlı təqdimat olmuşdur. Təqdimat zamanı idman yarışlarının sayı, növləri, onların keçiriləcəyi məkanlar, iştirakçı idmançıların və rəsmilərin ehtimal olunan sayı, idmançıların qalacaqları binalar və digər mühüm əhəmiyyət kəsb edən sahələr barədə seminar iştirakçılarına geniş məlumat verilmişdir.

Respublikamızın şəhər və rayonlarında hazırda 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. 2018-ci ildə Lənkəran şəhərində Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir. 3 Olimpiya İdman Kompleksinin (Neftçala OİK, Tərtər OİK, Goranboy OİK) və 2 İdman Kompleksinin (Yardımlı İK, Qala İK) tikintisi davam etdirilir. Beyləqan OİK isə artıq açılışa hazırdır. Qeyd edək ki, fevralın 13-də Beyləqan İdman Kompleksinin açılışı olmuş və möhtərəm Prezidentimiz tədbirdə iştirak etmişdir.

Yevlax Olimpiya İdman Kompleksinin layihələndirilməsi başa çatdırılmış, Günəşli qəsəbəsində yeni şahmat məktəbi, Buzovna qəsəbəsində isə idman zalı tikilib istifadəyə verilmişdir. 8 idman zalının tikintisi davam etdirilir.

İdmançılarımız əmindirlər ki, ötən il əldə edilən uğurlar, onlara göstərilən diqqət və qayğı cari ildə daha yüksək zirvələr fəth edəcəklərinə stimul verir.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**

# "Hematologiyada yeni texnologiyalar və onların klinik əhəmiyyəti" mövzusunda elmi-praktik konfrans keçirilib





**Martın 2-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında "Hematologiyada yeni texnologiyalar və onların klinik əhəmiyyəti" mövzusunda elmi-praktik konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən universitetin rektoru, professor Əziz Əliyev konfransın Milli Onkologiya Mərkəzi və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının birgə təşkilatçılığı ilə keçirildiyini deyib. "Milli Onkologiya Mərkəzində çox böyük nailiyyətlər əldə edilir. Ötən il mərkəzdə təxminən 106 mindən çox xəstə müayinə olunub. Onlardan təqribən 65 faizi onkoloji xəstəliklərlə bağlı olub. Mərkəzdə ən müasir laboratoriya fəaliyyət göstərir. Bu laboratoriyada təxminən 800 mindən çox test aparılıb. Bu da onkoloji xəstəliklərin erkən diaqnostikası və müalicəsi baxımından çox əhəmiyyətlidir.

Hematologiyada olan yeniliklər və onların təbabətdə tətbiqi çox önəmlidir. Ona görə də konfransın yüksək səviyyədə keçəcəyinə və aparılan fikir mübadiləsinin bu sahənin daha da inkişaf etməsinə öz töhfəsini verəcəyinə inanıram", - deyən rektor konfransın işinə uğurlar arzulayıb.

Konfrans müxtəlif mövzularda məruzələrlə davam etdirilib. Türkiyənin İstanbul Sağlıq Bilimləri Universitetinin biokimya mütəxəssisi Cemal Kazezoğlunun "Extended İPU: Laboratuvar iş akışına katkısı", Ege Universitetinin biokimya mütəxəssisi Güneş Başyolun "Anemi: Laboratuvar tanısı", Sysmex-in aplikasiya mütəxəssisi Fidan Yılmazın "Floresan akım sitometrisi - hücrelere yakından bakmak", Milli Onkologiya Mərkəzinin həkim-onkoloqları - Günel Ələsgərovanın "Kəskin limfoblast leykozun müalicəsinin nəticələri", Elxan Kazımovun "Kimyaterapiya ilə əlaqəli sitopeniyalar", Aytən Səfixanovanın "Xroniki limfoleykoz" mövzularında məruzələri dinlənilib və müzakirələr aparılıb.

**AZƏRTAC**

# UNEC-də "Elm aylığı"na start verilib

**Azərbaycan Respublikası Prezidentinin martın 27-nin ölkədə "Elm günü" kimi təsis edilməsi haqqında Sərəncamını rəhbər tutaraq, UNEC-də elmi fəaliyyətin səmərəli təşkili, idarə edilməsi və inkişafını təmin etmək məqsədilə "Elm aylığı"na start verilib.**





"Elm aylığı"nın rəsmi açılış tədbirində UNEC-in rektoru, professor Ədalət Muradov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik katibi Nərgiz Axundova, UNEC İctimai Nəzarət Şurasının üzvləri və universitetin professor-müəllim heyəti iştirak edib.

Rektor Ədalət Muradov "Elm günü"nün təsis edilməsi haqqında dövlət başçısının Sərəncamının əhəmiyyətini vurğulayaraq, UNEC-də fevralın 27-dən martın 27-dək "Elm aylığı"nın keçirilməsi ilə bağlı əmrin imzalandığını bildirib. Tədqiqat universitetinə transformasiya istiqamətində UNEC-də son illər həyata keçirilən işlər, əldə olunan nailiyyətlərə diqqət çəkən rektor, universitetdə 22 tədqiqat mərkəzinin, Gənc Alimlər Şurası, UNEC Tədqiqat Fondunun yaradıldığını vurğulayıb. Son 4 ildə UNEC-in professor-müəllim heyətinin "Web of Science" bazasına daxil edilən elmi əsərlərinin sayında ciddi artımın qeydə alındığını, 1991-2018-ci illərdə həmin bazaya daxil edilən elmi əsərlərinin təxminən 56%-nin məhz son 3 ilin payına düşdüyünü qeyd edib. Ə.Muradov bu istiqamətdə görülən işləri daha da aktivləşdirmək məqsədilə UNEC-də beynəlxalq beyin mərkəzinin yaradılmasının nəzərdə tutulduğunu da vurğulayıb.

UNEC-in qısa zamanda böyük uğurlar əldə etdiyini bildirən akademik Ziyad Səmədzadə universitetin ölkənin iqtisad elminə verdiyi töhfələrdən söz açıb. Azərbaycanda uğurlu iqtisadi inkişaf strategiyasının icra olunduğunu, ölkədə özünəməxsus iqtisadi modelin formalaşdırıldığına diqqət çəkən akademik, qabaqcıl təcrübənin tətbiq olunması zamanı Azərbaycanın milli maraqlarının nəzərə alınmasının zəruriliyini bildirib.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik katibi Nərgiz Axundova ölkədə "Elm günü"nün təsis olunmasının əhəmiyyətindən bəhs edib. Elmin əsas məqsədinin insan həyatının rifahı olduğunu bildirən N.Axundova qlobal elmdə mövcud meyillərin Azərbaycana da təsir etdiyini diqqətə çatdırıb. Akademik dövlətimizin yüksək iqtisadi inkişafına nail olunması üçün gələcək inkişafın hədəflərinin düzgün müəyyən edilməsinin vacibliyini vurğulayıb.

UNEC-in Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamentinin direktoru, professor Zahid Məmmədov universitetin elmi nailiyyətlərindən və gələcəkdə elmi fəaliyyətin uğurlu təşkili üçün atılan addımlardan danışıb.

# Tibbi xidmət müasir tələblər səviyyəsindədir



Ölkəmizdə son illər digər sahələrdə olduğu kimi, əhaliyə göstərilən səhiyyə xidməti sahəsində də müsbət dəyişikliklər müşahidə olunur. Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində səhiyyə islahatları uğurla davam etdirilir. Xəstəxana və poliklinikalar müasirləşir, müasir tibbi avadanlıqlarla təchiz olunur, xüsusilə kadr potensialının yüksəldilməsinə maksimum səy göstərilir. Nərimanov rayonunun digər səhiyyə ocaqlarında olduğu kimi, 8 saylı şəhər poliklinikasında da vəziyyət qənaətbəxşdir. Hər gün müxtəlif ünvanlardan poliklinikaya müxtəlif xəstəliklərdən əziyyət çəkən çoxsaylı insanlar üz tutur. Onların müayinə və müalicəsi müasir tələblər səviyyəsindədir. Ağ xalatlı ömür keşikçiləri çalışırlar ki, tibbi xidmət hər bir xəstəni razı salsın. Bir sözlə əhali arasında geniş maarifləndirmə işləri aparılsın.

Poliklinikanın baş həkimi səhiyyə sahəsində çoxillik iş təcrübəsi olan, insanların gözündə pillə-pillə ucalan Tamella Kərimovadır. Biz onunla iş otağında görüşdük. Tamella xanım bizi maraqlandıran məsələlərə aydınlıq gərirərək dedi:

—Hər cür uyğunluğa malik olan poliklinikada peşəsinin vurğunu olan 275 nəfər ali və orta tibb ixtisası olan kadrlar çalışır. Onların əsas məqsədi insanları xəstəliklərdən azad etmək, ilk növbədə müayinənin düzgün müəyyənləşdirməkdən ibarətdir.

Poliklinikada 80 min əhaliyə tibbi xidmət göstərilir ki, bunlardan da 10 mini qaçqın və məcburi köçkünlərdir. Dəfələrlə poliklinikaya gələn insanlarla monitorinq aparılmışdır, nəticə isə uğurludur. Hamı həkimlərimizin fəaliyyətindən razıdır.

Ölkə başçısının sərəncamı ilə fevralın 15-dən mayın 15-dək ölkəmizdə əhali arasında tibbi müayinə işləri həyata keçirilir. Bu kampaniyanın uğurla başa çatması üçün poliklinikada tədbirlər planı hazırlanmışdır. Bu işə ciddi nəzarət olunur. Çalışırıq ki, buraya gələn hər bir insan ailələrinə razılıqla, ümidlə qayıtsın.

Hər gün tibbi müayinə ilə bağlı müxtəlif ünvanlardan onlarla xəstələr qəbul edilir. Müayinə otaqlarında onlar yaxşı-yaxşı yoxlanılır, insanlara lazımi tövsiyələr verilir, onlara məsləhət görülür ki, soyuq qış günlərində həmişə ehtiyatlı olsunlar, qripdən qorunmaqla, qida rejiminə riayət etsinlər.

Poliklinikaya müayinə və müalicə məqsədilə gələn insanlara nümunəvi tibb xidməti göstərilməsində şöbə müdirlərindən Gülnarə Əfəndiyeva, Nazilə Babayeva və başqalarının adlarını fərəhlə çəkmək olar.

Biz poliklinikada olarkən ayrı-ayrı xəstələrlə görüşüb söhbət etdik. Onların ürək sözlərini olduğu kimi qələmə aldıq.

Əli Alıyev (əmək veteranı):

—Xeyli vaxtdır ki, şəkər xəstəliyindən əziyyət çəkirəm. Bu xəstəlik əsrin bəlasıdır. Qürur hissi ilə vurğulamaq istərdim ki, poliklinikada çalışan tibb işçilərinin yaxından köməkliyi sayəsində qanımda şəkərin faizi minimum səviyyəyə endirilib, indi özümü rahat hiss edir, xüsusilə dietanı diqqət mərkəzində saxlayıram.

Tərlan Cahangirova (evdar qadın):

—Ürəyimdə kəskin ağrılar hiss etdiyimə görə xeyli vaxtdır ki, 8 saylı poliklinikaya üz tuturam. Həkim nəzarətindəyəm, müayinə və müalicələr öz səmərəsini verir. Ölkəmizdə səhiyyə xidmətinin ilbəil yaxınlaşmasına görə Prezident İlham Əliyevə səmimi minnətdarlığımı bildirirəm

Biz yaşlı nəslin nümayəndələri ilə söhbət edərkən onlar tibb bacılarından əslən Xocalıdan olan Reyhan Mirzəyeva, Ülviyyə Məmmədova və başqalarından razılıqla danışdılar.

**Söhbəti qələmə aldı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# YARADICILIQDA QOŞA QANADLILIQ NÜMUNƏSİ




Çağdaş dövrün elmi-ədəbi fikir tarixinin tanınmış nümayəndələrindən biri də Əjdər Qiyaslıdır. Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, görkəmli iqtisadçı-alim, kamil pedaqoq və istedadlı şair 58 ildən çoxdur ki, elmi-pedaqoji və ədəbi sahədə fəaliyyət göstərir. Onun iqtisadiyyatın aktual problemlərindən bəhs edən 8 kitabı, 85-dən çox elmi əsəri, 150-dən artıq elmi-publisist məqaləsi mütəxəssislər, eləcə də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanmışdır. Ə.Qiyaslı həm də "İqtisadi nəzəriyyə" və "İqtisadi təlimlər tarixi" kimi irihəcmli dərsliklərin həmmüəlliflərindən biridir.

Əjdər Qiyaslı uzun illərdir ki, elmi-ədəbi yaradıcılığını qoşa qanadlar kimi davam etdirir. Belə ki, o yalnız kamil iqtisadçı, alim-pedaqoq deyil, həm də ədəbi mühitdə istedadlı şair kimi tanınır. Ə.Qiyaslı 13 şeirlər kitabının müəllifidir.

Şairin şeirlərinə bir çox tanınmış bəstəkarlar, o cümlədən S.Ələsgərov, R.Mirişli, C.Quliyev, M.Əhmədova, C.Musayev mahnılar bəstələmişlər. Onun şeirləri bir çox xalqların dilinə tərcümə olunmuşdur.

Alim-şairin 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında nəşr olunmuş "Karvan hələ yoldadır" kitabına şairin son illərdə qələmə aldığı poetik nümunələri toplanmışdır. İlk olaraq qeyd edək ki, müxtəlif mövzuları ehtiva edən bu əsərlərdə vətənə, xalqa, ümumən türkçülüyə məhəbbət, humanizm, xeyirxahlıq kimi keyfiyyətlər müəllifin bir ədəbi şəxsiyyət olaraq səmimiyyətinin təcəssümü olaraq oxucuya xoş təsir bağışlayır. Elə bu fikir və təəssüratla "Karvan hələ yoldadır" şeirlər toplusunu vərəqləyirik. 10 fəsildən ibarət olan bu topluda bədii-poetik sözlə təsvirlər, düşüncə və fikirlərin zəngin, əlvan epitet, detallarla ifadəsi, heç şübhəsiz, müəllifin ədəbi axtarışlarının məhsuludur.

Müəllifin istək və arzuları, gəncliyə tövsiyəsi, insanlığa məhəbbəti, dünyaya poetik baxışları, Uca Yaradana etiqadı, qəlbində coşub-çağlayan vətən eşqi, haqqa-ədalətə tapınması şair, vətəndaş məsuliyyəti ilə bütün şeirlərində qəlbinin çırpıntıları, sədası kimi qələmə alınıb. Bütün bunları bölmələrin adından da görmək olar. Diqqət edək: "Tale yolu", "Yaradan yaşayır", "Mənim dünyam", "Tanrı sədası", "Ömür bir də verilmir", "Vətən, mənə oğul de", "Sevgi dolu nəğmələr", "Arzular qanadlanır..." və "Haqq incələr, üzülməz..."

*Sənin gözlərində işıq yananda,*
*Mənim gözlərim də nurlanır onda.*
*Qəlbimin telləri nəğmələr qoşur,*
*Nə yaxşı Kür ilə Araz qovuşur.*
*Təbrizim, Təbrizim, gözəl Təbrizim,*
*Sən doğma anasan, mənim əzizim.*

Əsərlərində belə bir qruplaşma aparmaq həm də şairin ədəbi zövqündən xəbər verir. Bir-birindən gözəl, mənalı şeirlər insanda həyata inam yaradan ümid kimi, işıq təki ruhumuza çilənir.

"Ay dünya", "Arzu çələngi", "Apar məni dağlara", "Qocalmağa tələsmə", "Tanrıya dikərdim nurlu gözümü" və bu qəbildən digər şeirləri dediklərimizə nümunədir. Şair böyük ümidlə, inamla Yaradana üz tutur:

*İlahi! Hikmətlə gücləndir məni,*
*Yazmağa başlayım "İnsannamə"ni.*
*Vəhyinlə hər şeydə hikmət aradım,*
*Məni yaratdın ki, mən də yaradım.*

Əjdər Qiyaslının bir çox şeirləri ayrı-ayrı şəxsiyyətlərə, tarixi hadisələrə ithaf olunub. "Qarabağ uğrunda fədakarlığın" şeiri xalqımızın iftixarı, görkəmli hüquqşünas, müdrik və gözəl şəxsiyyət Şükür Rzayevin əziz və unudulmaz xatirəsinə, "İstiqlal mahnısı" Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə, "Yaşadır səni" şeiri görkəmli alim, xeyirxah, alicənab insan Çingiz Axundovun əziz xatirəsinə həsr olunub. Şair "Unutmur Vətən" şeirində xalqımızın fədakar oğlu vətənpərvər şəxsiyyət, general-leytenant Arif Heydərovun obrazını yaratmağa çalışıb. Müəllif şeirə giriş kimi Arif Heydərovun həyat amalından söz açaraq deyir ki, bu qeyrətli vətən övladı öz torpağını, xalqını, Vətənini hədsiz bir məhəbbətlə sevirdi. Vaxtilə A.Heydərovun SSRİ-nin Türkiyədəki səfirliyində işləyən zaman aprelin 28-də SSRİ-nin Türkiyədəki səfirliyinin binası qarşısında SSRİ bayrağı ilə yanaşı, o vaxtadək heç kimin görmədiyi bir bayraq da dalğalanırdı. O zaman Xarici İşlər Nazirliyindən, müxtəlif qurumlardan zənglər gəlmiş, o nə bayraqdır elə,— deyə maraqlanmışdılar. Arif Heydərovun cavabı aydın və sərrast olmuşdur: "Bu gün mənim Azərbaycanımın Respublika elan olunduğu gündür, o şərəfə qaldırılıb bu bayraq". Bu, Sovetlər Birliyi dövründə misilsiz fədakarlıq, böyük cəsarət və qeyrət simvolu idi.

Kitabın "Yaradan yaşayır" fəsli "Ərdoğanı qoruyun" şeiri ilə başlayır. Adından da göründüyü kimi, şeir Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ithaf edilmişdir. Müəllif sanki Türk dünyasına bir mesaj ünvanlayır:

*Dağlar kimi mətindi,*
*Tanrıdan qismətindi.*
*Bir də tapmaq çətindi,*
*Ərdoğanı qoruyun!*

Kitabın "Ömür bir də verilmir" fəslindəki şeirlər də özünün bədii-poetik təsvirləri ilə maraqla oxunur, sevilir və yadda qalır. Müəllifin dünyadan vaxtsız köçən alim və şairə qızı Nabata həsr etdiyi "Niyə məni ayrı saldın özündən" əsərini həyəcansız oxumaq olmur. Müəllif yazır ki, "Dünyadan vaxtsız köçən xanım-xatın Nabat Əjdərqızının ömür kitabını vərəqləyəndə onun könül dünyasının mənəvi inciləri aydın görünür. O, kamil şəxsiyyət kimi yetişmişdi: gözəl iqtisadçı-alim, yetkin pedaqoq və istedadlı şair idi. Nabat xanım həm dəyərli elmi tədqiqatlar aparırdı, həm də gözəl şeirlər yazırdı. Onun 1999-cu ildə işıq üzü görmüş "Günəşimin hərarəti kiçilməz" adlı ilk şeirlər kitabına görkəmli akademik, professor, millət vəkili Rafael Hüseynov ön söz yazmış və bu poetik nümunələrə yüksək dəyər vermişdir.

Ə.Qiyaslının haqqında bəhs etdiyimiz kitabında Nabat Əjdərqızının da bir neçə şeiri yer almışdır. Həmin şeirlər maraqla, ürək yanğısı ilə oxunur. Əjdər müəllimin bir ata məhəbbəti ilə yazdığı "Əziz qızım Nabat!" şeirində sanki qəlbimizin sızıltılarını eşidirik:

*Sən yaman sındırdın könül tarımı,*
*Yaram göz-göz oldu... qopardın, qızım.*
*Bütün istəyimi, arzularımı,*
*Özünlə məzara apardın, qızım...*

Kitabın "Sevgi dolu nəğmələr" fəslindəki şeirlər nikbin ruhda yazılmış əsərlərdir. "Bir incə gülüşündən", "Cənnət göründü", "Necə sevməyim səni", "Səni gözəl görəndə", "Həbibin ollam", "Nanəli", "Nə "Hə"si var, nə "Yox"u", "Gül çiçəyə, çiçək gülə qovuşur", "Ürəyini aç mənə" və bu qəbildən olan digər şeirlər maraqla oxunur.

İstedadlı şair Əjdər Qiyaslının əsərləri müasir poeziyamızda həyat gerçəkliklərinin əksi olaraq, haqqın, ədalətin tərəfdarı olduğundan, hər zaman vətəndaşlıq mövqeyini nümayiş etdirdiyindən bizdə, ümumən, Azərbaycan oxucusunda rəğbət doğurur.

**İsmət SƏFƏROV,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü,**
**"Qızıl Qələm" mükafatı laureatı.**

# Bitkilərin mühafizəsində fitosanitar tədbirlər əvəzsizdir

Şəki rayonunda 2019-cu ilin məhsulu üçün 2018-ci ilin payızında 68068 hektar sahədə payızlıq dənlilər əkilmişdir ki, bunun da 45962 hektarı buğda, 21626-sı arpa və 480 hektarı xəsil arpadır. Kənd təsərrüfatına yararlı torpaq sahələrindən yüksək məhsul almaq, əhalinin il boyu kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək üçün qarşımızda çoxlu vəzifələr durur. Həmin vəzifələrdən biri də kənd təsərrüfatı bitkilərinə və istehsal olunan məhsullara xəstəlik və zərərvericilər tərəfindən vurulan zərərin minimuma endirilməsi, ekoloji təmiz məhsul almaqdır. Buna müvafiq olaraq, Şəki Rayon Bitki Mühafizəsi Mərkəzinin mütəxəssisləri tərəfindən ötən ilin avqust-sentyabr aylarında biçilmiş taxıl sahələrində (kövşənliklərdə) siçanabənzər gəmiricilərə qarşı mütəmadi müşahidələr aparılmış və onların artım dinamikasında maksimum çoxalma müəyyən edilmişdir. Odur ki, Şəki Rayon Bitki Mühafizəsi Mərkəzi tərəfindən siçanabənzər gəmiricilərə qarşı mübarizə tədbirlərinə ciddi diqqət yetirilmişdir. Belə ki, səpindən (oktyabr ayından) 2019-cu ilin bu gününə kimi Mərkəzin mütəxəssisləri tərəfindən rayonun payızlıq taxıl əkinlərində siçanabənzər gəmiricilərə qarşı 56130 hektarda fitosanitar müşahidələr aparılmış, 51065 hektarda sirayətlənmə aşkar edilmiş və 36844 hektarda mübarizə tədbirləri aparılmışdır. Aparılmış mübarizənin 8169 hektar fermerlərin vəsaiti hesabına, 28675 hektarda isə büdcə vəsaiti hesabına olmuşdur. Müddət ərzində 1200 kq dərman preparatı təhvil götürülmüş, istehsalçılar təhlükəsizlik haqqında təlimatla tanış edilmiş, aldadıcı yemin hazırlanma qaydası başa salınmış və bölgü əsasında hər bir istehsalçıya imza etdirilməklə dərman preparatı verilmişdir. Hazırda siçanabənzər gəmiricilərə qarşı mübarizə tədbirləri yekunlaşmaq üzrədir.

Şəki böyük taxılçılıq rayonu olduğu üçün Bitki Mühafizəsi Mərkəzi tərəfindən 2002-2018-ci illər ərzində rayonun taxıl sahələrində fitosanitar vəziyyətin statistikası çıxarılaraq əvvəlki illərlə müqayisəli təhlil edilmişdir. Belə ki, siçanabənzər gəmiricilərə qarşı 2002-ci ildə 2338 hektarda mübarizə aparıldığı halda, illər boyu bu rəqəm qalxaraq 2018-ci ildə 36258 hektara çatmışdır ki, bunun da 22879 hektarı büdcə vəsaiti hesabına aparılmışdır. Xüsusilə subsidiya verilən 2008-ci il dən etibarən kimyəvi mübarizənin həcmi ildən-ilə artmışdır. Taxıl böcəyində də vəziyyət eynidir. 2004-cü ildə taxıl böcəyi sürfələrinə qarşı 500 hektarda kimyəvi mübarizə aparıldığı halda, 2018-ci ildə bu rəqəm 15370 hektara çatmışdır. Taxıl böcəyində də əsas intensiv mübarizə 2009-cu ildən başlayır. Çünki, əkin sahəsinə görə subsidiyanın verilməsi nəticəsində boş torpaq sahəsi qalmamışdır. Hər yer əkilmişdir. Əvəzində isə yay şumu, herik kimi vacib tədbirlər unudulmuş və illər boyu bu məsələ ətraflı izah edilsə də, yay şumu əlavə xərc apardığı üçün yerinə yetirilməmişdir. Nəticədə payızlıq taxıl əkinlərində yay şumu aparılmadığı üçün əkin sahələrində potensial təhlükə törədə bilən siçanabənzər gəmiricilərə, həm də taxıl böcəklərinə qarşı aparılan kimyəvi mübarizənin həcmi ildən-ilə genişlənmişdir. Odur ki, verilən subsidiyalarda yay şumu da öz əksini tapmalıdır.

Əvvəlki illəri müqayisə etdikdə aydın olur ki, son illər ziyankar bağacıq, zəlicik, sümürtkən böcəklər, taxıl tripsi, taxıl mənənəsi xeyli azalmışdır. Bunun isə başlıca səbəbi alaq otlarına qarşı herbisidlərin tətbiqində çən qarışığına insektisidin əlavə edilməsi olmuşdur. Belə ki, alaq otlarına qarşı mübarizə vaxtı yuxarıda adları qeyd edilən zərərvericilərin fəaliyyətə başladığı vaxtla üst-üstə düşməsi eyni vaxtda bir neçə zərəvericiyə qarşı mübarizəyə imkan vermişdir. Son illərdə çəyirtkəkimilərə qarşı da mübarizənin həcmi artmışdır.

Təhlillər göstərir ki, payızlıq taxıl əkinlərində sarı pas xəstəliyi 2010-cu və 2015-2018-ci illərdə geniş yayılaraq epifitotiya şəklini almış və Bitki Mühafizəsi Mərkəzinin nəzarəti ilə kimyəvi mübarizə aparmaqla yüksək bioloji səmərəlilik əldə edilmişdir.

Şəki Rayon Bitki Mühafizəsi Mərkəzinin apardığı fitosanitar müşahidələr və əvvəlki illərin statistikası bir daha göstərir ki, qlobal istiləşmə ilə bərabər, fermerlər tərəfindən aqrotexniki tədbirlərin lazımi səviyyədə aparılmaması nəticəsində payızlıq taxıl əkinlərində fitosanitar vəziyyət ildən-ilə ağırlaşır. Əvvəlki illərlə müqayisədə hər il xüsusi təhlükəli və digər zərərli orqanizmlərin miqyası ildən-ilə genişlənir, bu da zərərli orqanizmlərin aqressivliyini, virulentliyini və yayılma riskini xeyli artırır. Belə risklərə aiddir: yay şumunun vaxtında aparılmaması səbəbli siçanabənzər gəmiricilərin və taxıl böcəkləri sürfələrinin pik həddə çatması; taxıl sahələrində pas və kök çürüməsi xəstəliklərinin geniş yayılması (kövşənin yerdə qalması, taxılın sələfinin taxıl olması və qlobal istiləşmə səbəbli); fərdi həyətyanı sahələrdə, bağlarda elmi əsaslarla mübarizə tədbirlərinin aparılmaması səbəbli karantin obyekt olan şərq meyvəyeyənin, Kaliforniya çanaqlı yastıcasının və sitrus ağqanadlısının çoxalması; şala növlərinin təhlükəli həddə çatması; kənardan gətirilən tinglərdə karantin və karantin olmayan zərərvericilərin aşkar edilməsi; İtaliya çəyirtkəsinin Gürcüstandan növbəti miqrasiyasının gözlənilməsi; karantin alaq otlarının yayılma riski (xüsusilə yovşanyaıpaqlı ambroziya və sürünən (çəhrayı) kəkrə); pambıq sovkasının son illərdə tütün, qarğıdalı, bostan və tərəvəz sahələrində kütləvi çoxalması.

Yuxarıda qeyd edilən risklərin idarə olunması üçün aparılan kimyəvi mübarizənin həcmi ildən-ilə genişlənir.

Bu gün etibarlı ərzaq təminatında bitkilərin mühafizə olunması xüsusi əhəmiyyət kəsb edir və ərzaq təhlükəsizliyində milli strategiya kimi qəbul olunur. Odur ki, problemlərin həlli yollarını tədqiq etdikdə bu qənaətə gəlirik: bölgənin taxıl sahələrinin 80-90 %-i dəmyə əkinləridir və 70-80 ildir ki, belə torpaqlarda ancaq taxıl əkilir. Yəni taxılın sələfi yenə taxıldır. Belə olduqda isə uzun illərdən bəri taxıla məxsus xəstəlik , zərərverici və alaq otları eyni sahədə çoxalır və taxılın inkişafına əngəl yaradır. Eyni zamanda, dəmyə əkin sahələrində siçanabənzər gəmiricilərin və taxıl böcəklərinin çoxalması üçün münbit şərait vardır. Belə torpaqlarda növbəli əkin tətbiq etmək qeyri-mümkündür. Buna görə də biz yuxarıda qeyd edilən aqrotexniki tələblərin yerinə yetirilməsinə nail olsaq, qeyd olunan zərərli orqanizmlərin çoxalması üçün əlverişli şəraiti onların əllərindən almış oluruq. Yay şumu aparmaqla siçanabənzər gəmiricilər və taxıl böcəklərinə qarşı kimyəvi mübarizəni iki dəfə azaltmaq olar. Bunun üçün: subsidiyaların verilməsində yay şumu öz əksini tapmalıdır, yəni fermer yay şumu aparmağa məcbur olmalıdır; taxıl sahələrinin bir hissəsini heriyə saxlamaqla yəni torpağı bir il müddətində dincə qoymaqla kimyəvi mübarizənin qarşısını tamamilə almaq olar.



**Tələt MEHDİYEV,**
**Şəki Rayon Bitki Mühafizəsi Mərkəzinin rəisi, aqrar elmlər üzrə fəlsəfə doktoru.**

# Şəmkirdə 2018-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə aid hesabat yığıncağı

**Yığıncaq iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsini dərin ehtiramla anıblar. Sonra rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov yığıncağı giriş sözü ilə açaraq hesabat məruzəsi ilə çıxış edib.**



2018-ci ildə rayonda 611 milyon 559 min manatlıq (əvvəlki ildəkindən 1,9 faiz çox) ümumi məhsul buraxılmış, adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 2821 manat təşkil etmişdir.

İl ərzində 4204 yeni iş yeri, o cümlədən 1609 daimi iş yeri yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırığa uyğun rayon iqtisadiyyatına investisiya qoyuluşunun həcminin artırılması ilə bağlı tədbirlər davam etdirilmişdir. Sahibkarlar tərəfindən ümumi dəyəri 108 milyon 601 min manat olan 254 layihə üzrə kənd təsərrüfatı məhsulları istehsalı və satışı, tikinti, ticarət və digər sahələrə 53 milyon 131 min manat investisiya qoyuluşu həyata keçirilmişdir.

Son illər rayonda kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı ilə yanaşı, yeni istifadəyə verilmiş aqrosənaye müəssisələrinin və digər istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, yeni istehsal sahələrinin yaradılmasına xüsusi diqqət yetirilir.

"Şəmkir Aqroparkı"nın soyuducu anbarında 12 min ton xurma saxlanılmış, 48 hektar sahədə meyvə bağı salınmış, 180 hektar sahədə müxtəlif növ bitkilər əkilmişdir.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialında il ərzində 156 ədəd və ya 513,7 kvadratmetr xalça istehsal olunmuşdur. Hazırda müəssisədə 81 nəfər toxucu və 12 nəfər inzibati-təsərrüfat işçisi çalışır.

Şəmkir şəhərində yerləşən gündəlik istehsal gücü 50 ton olan "Platek House" MMC-nin "Nəfis çörək" zavodunda 2018-ci ildə 6840 ton çörək istehsal olunmuşdur.

Bakı-Qazax avtomobil yolunun 398-ci km-də yerləşən əhalini kənd təsərrüfatı məhsulları ilə təmin etmək məqsədilə yaradılmış "Şəmkir səbəti" adlı "Yaşıl market" uğurla fəaliyyət göstərmişdir.

Şəmkir rayonunun Mehrili kəndinin ərazisində Şəmkir çayının sahilində "Azforel" MMC-balıq yetişdirmə və emalı müəssisəsinin tikintisi surətlə davam etdirilir. Ümumi sahəsi 4.94 hektar olan müəssisədə 250 nəfərin işlə təmin olunması nəzərdə tutulur. İnvestisiya dəyəri 43 milyon manat olan müəssisənin tikintisinə 2018-ci ildə 3.0 milyon manat investisiya qoyulmuşdur.

Bakı-Qazax avtomagistralından Şəmkir dəmiryolu stansiyasına gedən yolun kənarında investor Zeynal Əliyev tərəfindən 10 min ton buğda tutumu olan anbarın və sutkalıq istehsal gücü 200 ton olan un fabrikinin tikintisi başa çatmaq üzrədir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramına uyğun rayonda quruculuq və abadlıq işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 avqust tarixli, 3183 nömrəli sərəncamına uyğun olaraq Şəmkir şəhərində qəzalı vəziyyətdə olan 5 çoxmənzilli yaşayış binalarının sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 54 mənzilli, 4 mərtəbəli yaşayış binasının tikintisi başa çatdırılmışdır.

Rayonun avtomobil yollarının tikintisi və təmiri ilə bağlı mühüm işlər görülmüşdür.

2019-cu ildə uzunluğu 32,9 km olan Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolu yenidən tikilib istifadəyə veriləcəkdir.

Rayon üzrə 167 min 281 hektar torpaq sahəsi vardır.

2018-ci ildə 16824 hektar sahədə taxıl, o cümlədən 12.811 hektar sahədə buğda, 3863 hektar sahədə arpa və 150 hektar sahədə vələmir səpilmişdir.

2018-ci il ərzində 306 hektar sahədə yeni meyvə və giləmeyvə bağları salınmışdır.

Mövcud 556 hektar üzüm bağlarından 22 min 594,5 ton məhsul yığılmışdır.

Baramaçılığın inkişafı haqqında Dövlət Proqramına uyğun rayonda bu sahənin inkişafına başlıca diqqət yetirilmişdir.

Barama istehsalını gücləndirmək məqsədilə Çin Xalq Respublikasından gətirilmiş 20 min ədəd, Respublika Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 26 min ədəd yeni çəkil ağacları əkilmişdir.

Rayon üzrə 78 ümumtəhsil məktəbi (65 tam orta, 13 ümumi orta ), 52 məktəbəqədər və 2 məktəbdənkənar təhsil müəssisəsi mövcuddur.

2017-2018-ci ilin "Ümumi Təhsildə Keyfiyyət ili" edilməsi ilə əlaqədar rayonun 10 ümumtəhsil məktəbində təmayül sinifləri təşkil edilmişdir.

2014-2015-ci tədris ilindən başlayaraq IX və XI siniflərin buraxılış imtahanlarının Şəmkir Rayon İcra Hakimiyyəti tərəfindən nəzarətə götürülməsi öz müsbət nəticəsini vermiş, imtahanların nəticələrinə görə rayonun ümumtəhsil məktəbləri 50 faizdən yuxarı nəticə göstərmişdir.

Tibbi müayinəyə cəlb edilmiş vətəndaşlardan 2500 nəfər stasionar, 8931 nəfər ambulator müalicəyə cəlb olunmuş, 128 nəfər müayinə və müalicə üçün Bakı şəhərində yerləşən tibb müəssisəsinə göndərilmişdir.

Tərkibində 30 nəfər müxtəlif ixtisaslı həkimləri birləşdirən "Gənc Həkimlər Birliyi" il ərzində rayonun 11 yaşayış məntəqəsində 1300 nəfər vətəndaşa təmənnasız tibbi xidmət göstərmiş, 6 körpələr evi-uşaq bağçsında 100-dən çox uşağı, "Azərxalça" ASC-nin Şəmkir filialında və "Nəfis çörək" zavodunda çalışan işçilərin tibbi müayinələrini həyata keçirmişdir.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Orxan Mürsəlov, Milli Məclisin deputatları Sahibə Qafarova, Sona Əliyeva və Kamran Bayramov çıxış edərək 2018-ci il ərzində Şəmkir rayonunda görülmüş işləri müsbət qiymətləndirmiş və yığıncağın sonunda Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# SAMUX: UĞURLAR GÖZ ÖNÜNDƏDİR



Qabaqcıl aqrar rayonlardan olan Samuxda "2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələr" barədə geniş hesabat yığıncağı keçirilmiş, nailiyyətlərə nəzər salınmış, digər məsələlər ətraflı müzakirə edilmiş, konkret qərarlar qəbul olunmuşdur. İlk öncə Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Orxan Mürsəlov, rayon icra hakimiyyətinin, YAP şəhər təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət rəhbərləri və ziyalılar ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər qərənfillər qoymaqla, bir dəqiqəlik sükutla yad etdilər. Sonra dövlət rəsmiləri Heydər Əliyev parkında təşkil olunmuş sərgidə nümayiş olunan, rayonda tədarük edilən kənd təsərrüfatı və sənaye məhsulları ilə, o cümlədən rayonun sosial-iqtisadi inkişafın xronikası ilə, Heydər Əliyev Mərkəzinin möhtəşəm foyesində ümummilli lider Heydər Əliyevin zəngin həyat salnaməsindən bəhs edən fotostendlə tanış oldular. Samuxda gedən kompleks inkişafdan bəhs edən video filmə baxışdan sonra **Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** iştirakçıları salamlayaraq, cari ildə görülən işlər barədə əhatəli məlumat verərək, qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun uğurla davam etdirilir. On beş ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində 2018-ci ildə də ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran məsələlər öz həllini tapmış, böyük layihələr icra olunmuşdur. Ölkənin beynəlxalq nüfuzu artmışdır.

Ötən il Samux rayonunda da bütün sahələrdə yüksək nəticələr əldə edilmiş, tikinti-quruculuq, abadlıq işləri davam etdirilmişdir. 2018-ci ilin sosial-iqtisadi inkişafının göstəricilərinin təhlili bunu deməyə əsas verir. Belə ki:

- Ümumi məhsul buraxılışının həcmi 168,5 milyon manat olmuşdur ki, bu da əvvəlki ildəkindən (163,6 milyon manat) 3,0 faiz çoxdur.
- Kənd təsərrüfatı məhsullarının həcmi 7,1 faiz artaraq, 80,9 milyon manat,
- Sənaye məhsulunun həcmi 24,5 faiz artaraq, 8,4 milyon manat təşkil etmişdir
- Əhalinin gəlirləri 5,8 faiz artmışdır
- 2018-ci il ərzində 374-ü daimi olmaqla 586 yeni iş yeri yaradılmışdır.

Hesabat ilində rayonda tikinti-quruculuq və abadlıq işləri daha da sürətləndirilmişdir. Belə ki, "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına müvafiq olaraq Samux şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin yaşadığı 36 mənzilli 4 mərtəbəli çoxmənzilli yaşayış binasının dam örtüyü sökülərək yenidən qurulmuşdur. Eyni zamanda, təmirə ehtiyacı olan 4 çoxmənzilli yaşayış binalarında təmir-bərpa işləri aparılmışdır. Burunqovaq kəndində inşa edilmiş modul tipli 80 şagird yerlik yeni məktəb binası istifadəyə verilmişdir.

Qarayeri qəsəbəsində ümumi sahəsi 1,5 hektar olan istirahət parkında təmir-bərpa işləri aparılaraq, sakinlərin istifadəsinə verilmişdir. Rayon mərkəzinin Heydər Əliyev və Kolayır prospektlərində, Nəriman Nərimanov, Elçin Məmmədov, Arif Nəbiyev, Göygöl, Qalalı küçələrində, Kür yolunda İnstitut-Çobanabdallı-Lək-Sarıqaya və Yenikənd-Köbər-Qaraağaclı kəndlərarası avtomobil yollarında yenidənqurma və bərpa işləri başa çatmışdır.

2017-2018-ci tədris ilində 11-ci sinfi bitirmiş 464 məzundan 303 nəfəri və ya 65,3 faizi ali məktəblərə sənəd vermiş, onlardan 159 nəfəri və ya 52,5 faizi müvafiq ali məktəblərə qəbul olunmuşdur. Qəbul olunanlardan 43 nəfəri 500 baldan yuxarı nəticə göstərmişdir.

Hesabat ilində məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində müəyyən işlər görülmüşdür. Ümumtəhsil məktəblərinin kadr təminatı ilə bağlı işlər aparılmış, Təhsil Nazirliyində müsabiqə və müsahibədən müvəffəqiyyətlə keçmiş 47 nəfər müəllim ixtisasları üzrə vakant yerlərə təyin olunmuş, 6 nəfər müəllimlə müddətli əmək müqaviləsi bağlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC , "Vest Milk" MMC, Murovdağ Kəndli fermer təsərrüfatı, Heyvandarlıq və Yemçilik müəssisəsi, "Region Aqro" MMC kimi iri sahibkar təsərrüfatları fəaliyyət göstərir. Eyni zamanda, rayonda 200-ə yaxın müasir istixana fəaliyyət göstərir ki, onların da ümumi sahəsi 80,0 hektar təşkil edir. Bu istixanalarda il ərzində 8 min tondan çox faraş tərəvəz-pomidor, xiyar yetişdirilir. Bu məhsulların çox hissəsi MDB ölkələrinə ixrac olunur.

2019-cu ildə qarşımızda yerinə yetiriləsi daha böyük vəzifələr durur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı proqram xarakterli nitqlərində qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün bütün imkanlarımızı səfərbər etməliyik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında 2019-cu il üçün nəzərdə tutulmuş tədbirlərin icrası təmin edilməlidir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Orxan Mürsəlov davamlı inkişafdan, aparılan uğurlu islahatlardan əhatəli danışaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin titanik səyi nəticəsində respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən ətraflı söhbət açdı.

Samux Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahil Həsənov, Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov, "Boz dağ" heyvandarlıq kompleksinin rəhbəri Pərvanə Novruzova Azərbaycanda bütün sahələrdə aparılan uğurlu islahatlardan, davamlı inkişafdan, görülən yüksəktempli abadlıq-quruculuq işlərindən danışdılar.

Sonda Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Ağstafa inkişaf edir, müasirləşir

Ağstafa paytaxt Bakıdan 450 km məsafədə yerləşməsindən və inzibati rayon kimi yaxın keçmişdə yaranmasından asılı olmayaraq, rayonda irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, tikinti-quruculuq işlərinin geniş vüsət alması, iri sənayə, aqrar müəssisələrin yaradılması rayonun simasını dəyişərək müasir məkanlardan birinə çevirir. Dövlətimizin başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Regionların sosial-iqtisadi inkişafı" Dövlət proqramlarından irəli gələn vəzifələr rayon rəhbərliyinin başçılığı ilə uğurla həyata keçirilir.

Rayona investisiya qoyuluşu davamlı xarakter almışdır. Ötən iki il ərzində 52 milyon manat özəl investisiya qoyulmuşdur. Son yeddi il ərzində müxtəlif maliyyə mənbələri hesabına rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 381,4 milyon manat olmuşdur. Rayonda sahibkarlığa yaradılan münbit və şəffaf şərait nəticəsində ötən dövrdə 7324 yeni iş yeri açılmışdır.




Ağstafada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində son yeddi il ərzində ümumi məhsul buraxılışının həcmi 2 dəfə, sənayə məhsulunun istehsalı 3,5 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,8 dəfə, tikinti-quraşdırma işlərinin həcmi 2,4 dəfə, əsas kapitala yönəldilən investisiyalar 2,4 dəfə, orta aylıq nominal əmək haqqı 1,3 dəfə artmışdır. Rayonda qeyri-neft sektoru, o cümlədən, aqrar sahə özünün sürətli inkişaf dövrünü yaşayır. Hazırda Ağstafa aqroparkında son tamamlama işləri başa çatmaq üzrədir. Müəssisədə saatda 25 ton istehsal gücündə olan dənli bitkilərin toxumu istehsalı zavodu, saatda 5 ton istehsal gücünə malik olan paxlalı bitkilərin toxumu istehsalı zavodu, 36 min tonluq taxıl çeşidləmə-qurutma və saxlama anbarı, gündəlik 120 ton un emal edən dəyirman kompleksi, gündəlik 48 ton istehsal gücü olan yarımfabrikat və çörək zavodu, 36 ton istehsal gücü olan makaron zavodu, əhaliyə iaşə və digər xidmətlərin, ticarətin həyata keçirilməsi üçün 2,4 min m² sahədə müasir ticarət mərkəzi, 282 oturacaq yeri olan çoxfunksiyalı sərgi mərkəzi və 130 yerlik müasir yeraltı avtomobil dayanacağı parkının tikintisi başa çatmaq üzrədir. Yaxın zamanlarda 8 ha torpaq sahəsində istixana kompleksinin quraşdırılması və 10 min tonluq soyuducu anbarının tikintisi nəzərdə tutulur. Almaniya şirkətlərinin avadanlıq və texnologiyalarından istifadə edilən kombinatda 310 nəfər işlə təmin olunacaqdır.

Bundan başqa, Ağstafada dövlətimizin başçısı cənab İlham Əliyevin xeyir-duası ilə fəaliyyət göstərən "Karvan-L EKO" sənaye parkında istehsal gücü gündəlik 126 min ədəd kərpic və 8 min ədəd kirəmit dam örtüyü olan kərpic və keramika dam örtüklərinin istehsalı zavodunun tikintisi başa çatdırılmış və ilkin məhsul istehsalı üçün yoxlama aparılır. Müəssisədə 150 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Bununla yanaşı, 2 ha sahədə yeni istixana kompleksi quraşdırılmış, 4 ha sahədə tərəvəz məhsulları istehsal olunur.

Təkcə ötən il ərzində rayonda 990 nəfər yeni iş yerləri ilə təmin olunmuşdur. Bundan 885 nəfəri daimi iş yerləridir. Rayonda "Akkord tekstil MMC"nin tikiş fabriki fəaliyyət göstərir. Burada 80 nəfər çalışır. Müəssisədə istehsal olunan məhsullar Azərbaycan brendi ilə bir neçə ölkəyə ixrac olunur. Yaxın gələcəkdə istehsal olunan məhsulların çeşidinin artırılması və işçilərin sayının çoxaldılması istiqamətində iş aparılır.

Ağstafada rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahədə də ürəkaçan mənzərə müşahidə olunur. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, kənd təsərrüfatı məhsullarının həcmi 5,1 faiz artmışdır. Ötən ildə rayonda 30703 ton taxıl istehsal olunmuş, orta məhsuldarlıq 30 sentner (qarğıdalısız) olmuşdur. 20,1 min ton kartof, 7,9 min ton tərəvəz, 2 min ton bostan bitkiləri, 13,4 min ton meyvə, 7,1 ton üzüm istehsal olunmuşdur.



Əkinçilikdə bol məhsulun əldə olunması birbaşa suvarmadan asılı olduğuna görə bu sahədə mühüm işlər görülür. Suvarma suyuna olan tələbatı ödəmək üçün bir sıra məqsədyönlü işlər həyata keçirilmişdir. Ağstafada infrastruktur layihələrin həyata keçirilməsi də daim diqqət mərkəzindədir. Şəhərdə küçə və meydanların yenidən qurulması, çoxmənzilli yaşayış binalarının təmiri daim diqqət mərkəzində saxlanılır. Şəhərin əksər küçələrində abadlıq işləri başa çatdırılmışdır. Ağstafa şəhərində və Poylu qəsəbəsində çoxmənzilli yaşayış binalarının dam örtüklərinin dəyişdirilməsi, fasadlarda və pilləkən qəfəslərində təmir işləri aparılmışdır.

Ağstafanın yol nəqliyyat təsərrüfatı son dövrlərdə sürətlə yenilənir. Ümumi uzunluğu 10 km olan Düzqışlaq-Kolayır-Xılxına-Qarahəsənli avtomobil yolu yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda 9,5 km uzunluğunda Ağstafa-Xətai-Yenigün avtomobil yolunun yenidən qurulması və əsaslı təmir işlərinə başlanılmışdır. Rayonda təhsil infrastrukturunun yaxşılaşdırılması da mühüm məsələ kimi həmişə diqqətdə saxlanılır. Ötən il Köhnəqışlaq kəndində 108 şagird yerlik yeni məktəb binası və Kolayır kəndində 20 şagird yerlik modul tipli ibtidai məktəb binası tikilib müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Zəlimxan kənd tam orta məktəbinin dam örtüyü və pəncərələri dəyişdirilmiş, təmir işləri aparılmışdır. Yararsız vəziyyətə düşmüş Böyük-Kəsik kənd tam orta məktəbinin yeni binasının tikinti işləri sürətlə davam etdirilir. H.Aslanov qəsəbəsində 20 şagird yerlik modul tipli məktəbin quraşdırılması başa çatdırılmış və yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur. Təhsilə göstərilən diqqət və qayğının nəticəsidir ki, son illərdə məzunların ali məktəblərə qəbulunda dinamik artım müşahidə olunur. Ötən tədris ilində Ağstafa məzunlarından 17 nəfər 600-dən, 42 nəfər isə 500-dən yuxarı bal toplayaraq respublikanın nüfuzlu ali təhsil ocaqlarına qəbul olunmuşlar. Ümumilikdə 289 nəfər məzun tələbə adını qazanmışlar. Rayonun Göycəli kəndində və Ağstafa şəhər 2 saylı Körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri aparılmışdır. Əhalinin sağlam həyat keçirməsi istiqamətində də Ağstafa səhiyyə işçiləri öz üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirirlər. Ölkə Prezidenti İlham Əliyevin tapşırığı ilə respublikada həyata keçirilən 18 yaşdan yuxarı vətəndaşların tibbi müayinəyə cəlb olunması Ağstafa rayonunda yüksək mütəşəkkilliklə həyata keçirilir. Qeyd etmək lazımdır ki, əldə olunan nailiyyətlərlə yanaşı qarşıda bir çox layihələrin həyata keçiriləcəyi vacib məsələlərdəndir. Görünən odur ki, Ağstafa sözün əsl mənasında sürətli inkişaf tempini saxlayır.



**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Qəbələ: İqtisadi potensial daha da artırılıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkənin iqtisadi, siyasi, sosial sahələrində görülmüş işlərdən, qarşıda duran vəzifələrdən ətraflı danışılmışdır. Qeyd edilmişdir ki, 2018-ci il Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur. İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 246101 min manatlıq məhsul istehsal edilmişdir.**

2003-cü ilin oktyabr ayından 1 yanvar 2019-cu ilədək 16.843-ü daimi olmaqla, 18.642 yeni iş yeri açılmışdır. İl ərzində açılmış yeni iş yerlərinin sayı 1.936 olmuşdur ki, onların da hamısı daimi iş yeridir.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli sərəncamı ilə əlaqədar rayonda özünüməşğulluq proqramı uğurla həyata keçirilir.

2018-ci ildə xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

10 nömrəli Yol İstismarı MMC tərəfindən rayon ərazisində il ərzində 1369,6 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

2018-ci il ərzində Qəbələ şəhərində 120 uşaq yerlik körpələr evi-uşaq bağçası və Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi işləri başa çatdırılmışdır. Eləcə də Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulmasında inşaat işləri davam etdirilmişdir.

Qəbələ şəhərində 160 çarpayılıq rayon mərkəzi xəstəxana kompleksinin tikintisi, Dəmiraparan çayının sahilində Qəbələ şəhərinin sel sularından və daşqınlardan mühafizəsi məqsədilə aparılan sahilbərkitmə işləri davam etdirilmiş, 43 kilometrlik Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və yaxından köməkliyi ilə rayonda keçirilən beynəlxalq musiqi və kino festivalları, rəsm sərgiləri, idman yarışları və digər bu kimi tədbirlər öz tarixi şöhrətinə qovuşmaqda olan Qəbələnin həm də dünyanın cəlbedici turizm məkanına çevrilməsi istiqamətində çox böyük əhəmiyyət kəsb edir.

Rayonun müəllimləri respublika əhəmiyyətli müsabiqələrdə fəal iştirak etmişlər. Tüntül kənd tam orta məktəbin direktoru Telman Abdulxalıqov Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı, Kürd kənd tam orta məktəbin müəllimi Ümidvar Həsənov Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fəxri fərmanı", Nic qəsəbə 5 nömrəli tam orta məktəbin müəllimi Roza Koçari isə "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişlər. Şəhərdəki 3 nömrəli tam orta məktəbin məzunu Gülsüm Quliyeva qızıl medala layiq görülmüşdür. Ötən dərs ilində 50 nəfər məzun 600-dən yuxarı bal toplayaraq respublikanın ali təhsil müəssisələrinə qəbul olunmuşdur. Bunud kənd tam orta məktəbin məzunu Tural Məmmədov qəbul imtahanında yüksək nəticə əldə edərək Prezident təqaüdünə layiq görülmüşdür.

Qəbələdə 19 turizm istirahət obyekti fəaliyyət göstərir. Onların arasında 7 otel beşulduzludur. Rayondakı otel və mehmanxana tipli istirahət mərkəzlərinin bir gündə 2500-dən yuxarı turisti qəbul etmək imkanı vardır. 2018-ci il ərzində bu mərkəzlərə 518.085 nəfər turist gəlmişdir.

Rayon mərkəzi xəstəxanasında 2018-ci il ərzində stasionar xəstələrin sayı 2427 nəfər, cərrahi əməliyyatların sayı 245 olmuşdur. Bu müddət ərzində ambulator müraciət edən xəstələrin sayı 208130 nəfər təşkil etmişdir. 18 yaşadək olan uşaqların il boyu aparılan icbari dispanserizasiyasına 25922 nəfər cəlb olunmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin ötən il fevralın 15-dən mayın 15-dək kütləvi tibbi müayinələrin nəticəsinə əsasən 3603 nəfərə ambulator müalicə təyin olunmuş, 295 nəfər stasionar müalicəyə cəlb edilmiş, 184 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Son illər rayonda aqrar sahənin inkişafına xüsusi önəm verilir. Taxılçılıq rayonun aqrar iqtisadiyyatının əsasını təşkil edir. 2017-ci ildə hər hektardan 32,5 sentner taxıl əldə olunmuşdur. İxracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanılmış, bu sahədə fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonda əlavə olaraq 2 min hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur.

Rayonda barama və tütün istehsalına da başlanılmışdır. 2017-ci ildə 101 nəfər kümçü tərəfindən 9110 kiloqram barama istehsal edilmişdir. 2018-ci ildə 75 hektarda tütün əkilmiş, ilin sonuna kimi 100681 kiloqram quru tütün təhvil verilmişdir.

Rayonda 2 müasir heyvandarlıq kompleks və 4 ədəd kiçikhəcmli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsində müsbət dəyişikliklər baş vermişdir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Rüfət Əliyev, millət vəkili, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov yığıncaqda iştirak və çıxış etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yığıncaq iştirakçıları tərəfindən müraciət qəbul olunmuşdur.

**Rasim AMANOV,**
**"Respublika".**

# XOCALI SOYQIRIMI HƏRBİ-SİYASİ CİNAYƏTDİR

## *“Ermənilik sistemi” bəşəriyyətə böyük təhlükədir*

**1992-ci fevral ayının 25-dən 26-a keçən gecədə ermənilərin Rusiyaya tabe keçmiş sovet hərbi hissəsinin ağır texnika və heyəti ilə törətdikləri Xocalı soyqırımından 27 il keçir. Yüzlərlə günahsız sakinin vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ərazisinin Ermənistan tərəfindən işğalı zamanı törədilmiş ən qanlı hərbi cinayətlərdən yalnız biri idi. Ermənistan silahlı qüvvələri və xarici hərbi birləşmələr Xocalıdan və ətraf yerlərdən çıxa bilməmiş insanların demək olar ki, hamısını vəhşicəsinə məhv etmişlər. Bu hücum nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 ahıl qətlə yetirilmiş, 1275 nəfər girov götürülmüşdür, 150 nəfərin taleyi isə bu günə qədər məlum deyil. Faciə zamanı Xocalının 487 sakini əlil edilmiş, o cümlədən yetkinlik yaşına çatmamış 76 uşaq, 6 ailə tamamilə məhv edilmiş, 26 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Qətlə yetirilənlərdən 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, onların başları kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmış, hamilə qadınların doğulmamış uşaqları qarınlarından çıxarılmışdır.**

Aydındır ki, ermənilərə dəstək verən dünyanın bu regionda geosiyasi maraqları olan müəyyən böyük siyasi qüvvələri haylarının bu azğınlıqlarını, soyqırımı azarkeşləri olduqlarını, onlardan istifadə məqsədlərinə görə görmək və bəşəri cinayət müəllifləri olduqlarını etiraf etməkdən uzaqdırlar. Çünki “ermənilik” adlı artıq real bir məfhum vardır. Bu adi ifadə deyil, erməniləri idarə edən, təşkilatlandıran və icraya yönəldən əsrlərlə təkmilləşmiş bir sistemdir. Fikrimizi əsaslandırmaq üçün ***erməni verelq.am saytındakı 27 aprel 2017-ci ildə “Frankomasonlar Ermənistana hədəfləniblər: Kristof Abas nə üçün Yerevana gəlib?” (“Франкмасоны “прицелились” на Армению: почему Кристоф Абас прибыл в Ереван?”) sərlövhəli məqaləyə diqqət edək, burada çox incə mətləblər vardır. Böyük mason ustadı deyib ki, biz Ermənistanda müstəqil mason lojası yaratmaq istəyirik. Bizim ideologiyamız azadlıq, insanlar və ölkələr arasında həmrəylik, bərabərlik kimi dəyərlərdir. Bizi iqtisadi, sosial, mədəni, elmi məsələlər, insan şüurunu genişləndirmək maraqlandırır. Qonaqla söhbətində prezidentin sabiq milli təhlükəsizlik üzrə müşaviri Qarabağ separatçılarının liderlərindən biri Aşot Manuçaryan isə deyib ki, Ermənistanın və “ermənliy”in intellektual və mənəvi potensialı çoxsaylı gücləri və dini mərkəzləri həmişə maqaqlandırmışdır. “Ermənilik” yaxın zamanda özünü bir daha yada saldı və yenidən qlobal problemlərin həllində öz imkanlarını dərk etdi. Dünya mərkəzləri bu potensialı çoxdan bilirdilər. Nə qədər paradoksal olsa da hazırkı etapda, ümumbəşəri dəyərlərin silinməsi və hərc-mərclik, geosiyasi kataklizmlər şəraitində “erməni sistemi” tələb kimi qarşıda durub. Müxtəlif qruplar erməni potensialını öz maraqları üçün istifadə etməyə cəhd edirlər. “Ermənliy”in koordinasiya orqanlarının yaradılmasına ehtiyac yoxdur. Biz kifayət qədər qüdrətli sistemik, zərurət olduqda toplaşıb, “ermənliy”i səfərbər edib problemi həll edəcəyik.*** Göründüyü kimi, masonların “azadlıq, insanlar və ölkələlər arasında həmrəylik, bərabərlik kimi dəyərlər” ideyaları da irqçiliyə, etnik təmizləməyə, soyqırımına, milli eqoizmə köklənmiş, artıq şox böyük bəşəri təhlükə yarada biləcək “ermənilik” şüuruna sərf etmir. ***Gürcü “KavkazPlus” saytında 23 oktyabr 2017-ci ildə “Yerusəlim erməniləri:mənəvi quldurluq, korrupsiya və Osmanlı imperiyasına “təşəkkür” (“Армяне Иерусалима: духовный разбой, коррупция и “благодарность” Османской империи”) sərlövhəli məqalədə erməni icmasının xalqlar arasında törətdiyi fəsadlar və iddiaları, azərbaycanlılara qarayaxmaları barədə danışılır. Qeyd olunur ki, ermənilər başqalarının kilsələrini, müqəddəs ziyarətgahlarını mənimsəməklə hadisələrin müəyyən uğurla axınına ümid yeri qoymayıblar. Onların bu planını təkcə Yerusəlmdə deyil, Gürcüstanda da yüzlərlə gürcü kilsələrinə iddialarını yada salmaq kifayətdir. Əsrlər keçir, amma Müqəddəs Torpaqda Yerusəlim ermənilərinin münasibətləri heç kimlə yaxşı deyil, ancaq onların iddiaları qalır. Nəticədə də həmişə ermənilərin günahı ucbatından Rəbbin Qəbri Məbədində onların yunanlarla daimi qovğası və konflikti baş verir. Erməni iddiasına apaydın bir nümunə: 12 il əvvəl bir erməni rahibi təəssüflənib ki, Yerusəlimin erməni məhəllələrini birləşdirmək üçün Ermənistanda nə hərbi, nə maddi, nə də siyasi resurslar yoxdur. Göründüyü, kimi “ermənilik” iddia deməkdir.*** Bu iddia isə özündə yerli aborigen xalqların torpaqlarını, milli-mənəvi dəyərlərini, maddi ehtiyatlarını ələ keçirmək üçün yalan tarix, qarayaxma, böhtan təxribat, terror, soyqırımı törətmə strategiyasını ehtiva edir. Bunun üçün onlar öz nümayəndə-təxribatçılarını əsasən dünyanın söz sahibi olan fövqəldövlətlərində, digər güclü dövlətlərin bütün mühüm strukturlarında və beynəlxalq təşkilat və qurumlarında yerləşdirir, yaratdıqları **beynəlxalq “ermənilik toru”** ilə fövqəlgüclərin və dövlətlərin maraqlarına öz erməni strateji mənafelərini daxil edir və bu istiqamətdə mənfur, dağıdıcı, münaqişə zəminli siyasi, iqtisadi, sosial fəaliyyətlərini reallaşdırırlar. Bu strategiya nəticəsində fövqəllər istər-istəməz onları ən təsirli alətləri hesab edir, ermənilyin törətdikləri terrorları, soyqırımını, etnik təmizləməni, təxribatı, diversiyanı “görmür”, yalan tarixlərini, iddialarını həqiqət kimi arxivlərə, tarixi faktlara istinad etmədən “inanır”, müdafiə edir, reallaşmasını dəstəkələyir, beynəlxalq normalara riayət etmədiklərini də qınamırlar. Bu gün artıq onların bu əməlləri bütün aydınlığı ilə ortadadır. 26 Bakı komissarının rəhbəri Stepan Şaumyan həm də tarixdə mövcud olmamış “Türkiyə Ermənistanı”nın da RSFSR tərəfindən rəhbəri təyin olunmuşdu. 27-ci komissar Anastas Mikoyan digərlərini “ələ verərək” keçmiş SSRİ-nin Ali Sovetinin sədri vəzifəsinədək yüksəldi. **İmperiyanın geosiyasi marağına “xidmət” edən** bu adamın və erməni kalonunun tədbiri, təzyiqi, təxribatı və təşkilatçılığı ilə Azərbaycanın minlərlə ziyalısı, bir sözlə millətin varlığını qoruyan, təmsil edən eliti yox edildi, torpaqlarımız süni yaradılmış Ermənistana ilhaq edildi. Təəssüf ki, istər çar Rusiyasının və istərsə də SSRİ-nin dağılmasında erməniliyin həlledici rolunu görən tədqiqatçılar barmaqla sayılır. Onlara da əhəmiyyət verilmir. Beləliklə, bu səssiz soyqırımı 1988-ci ildə qədim ərazimiz İrəvanda yerli azərbaycanlıların qəddarlıq və zorakılıqla qovulmaları, Qarabağda separatizm və ərazilərimizin 20 faizinin işğalı, bir milyon iki yüz mindən çox qaçqınla, Xocalı soyqırımı ilə nəticələndi. Bu terror, kütləvi qırğın imperiya mərkəzinin siyasi-hərbi dəstəyi ilə reallaşdı. İddia və erməniliyin dəstəklənməsi davam edir. Onlar dünyanın 22 şəhərini erməni paytaxtı, özlərini isə armenoid irqi elan ediblər, yəni digər xalqlar onlardan törəyiblər, qan qohumluqları var. Biz belə iddiaların bəyanının bir hissəsini erməni separatizminin, soyqırımı təşkilatçısı və icraçılarından, milli nifrət ideoloqlarından biri, irqçi yazıçı və qatil həkim Zori Balayanın tarixi yalan, saxtalaşdırma və qondarma “erməni soyqırımı” məzmunlu, Moskva şəhərində buraxdığı “Ocaq” kitabında da görürük. Daha sonra Z.Balayan 1996-cı ildə yazdığı və “Voskreşeniye” (“Dirilmə”) kitabında “ermənilıy”in nə demək olduğunu, qanlı nəticələrini, heyvandan da qat-qat aşağı xislətini apaydın ortalığa qoyur: “Biz Xaçaturla zirzəmiyə girdikdə artıq bizim əsgərlər uşağı aynanın çərçivəsinə mıxlamışdılar. O, çox səs-küy salmasın deyə Xaçatur onun öldürülmüş anasının döşünü kəsdi və uşağın ağzına dürtdü. Sonra mən onun skalpını (başın tükü ilə birlikdə dərisi) çıxardım, sinəsinin və qarnının dərisini soydum. O, yeddi dəqiqədən sonra qanaxmadan öldü. Xaçatur onu doğradı və türklərdən əmələ gələn itlərə atdı. Axşam biz eyni şeyi daha üç türk uşağı ilə etdik. Mən erməni patriot və vətəndaş borcumu yerinə yetirdim. Səhəri günü biz kilsəyə gedib 1915-ci ildə ölənlərin ruhuna dua oxuduq və dünən etdiklərimizə görə bağışlanmağımızı dilədik... Amma biz XOCALINI bizim vətənimizin bir hissəsini zəbt etmiş digər 30 minlik murdarlardan təmizlədik.” Hörmətli oxucu, diqqət edin, yalan “erməni soyqırımı” iddiası ilə günahsız körpələrin xüsusi qəddarlıqla məhv edən, real soyqırımı törədən bir ermənin qürurla dünyaya bəyanıdır və o, azadlıqdadır?!. Hansı insan haqlarından danışan nüfuzlu təşkilat, yaxud “demokratik hüquqi bir dövlət”in müvafiq strukturu ona bu əməlinə görə “gözün üstə qaşın var” deyib? Bu irqçi, soyqırımı iştirakçısının Moskvada səkkiz cildliyi nəşr olunub. Qeyd edək ki, 1992-ci il fevralın 26-da Ermənistan qoşunları tərəfindən azərbaycanlı mülki şəxslərə qarşı törədilmiş Xocalı qətliamının əsas təqsirkarlarından biri beynəlxalq terrorçu Monte Melkonyanı qəhrəman əsgərlərimiz məhv edə bilib. O, indi Ermənistanın milli qəhrəmanıdır. 1918-ci ildə İrəvanda və Azərbaycanın digər bölgələrində ağlasığmaz vəhşiliklər törətmiş, İkinci Dünya müharibəsində isə faşist Almaniyasının SS generalları olmuş, minlərlə günahsız insanı məhv etmiş Qaregin Njdenin və Dronun heykəlləri açılıb, bu terrorçuların adları dərsliklərə salınıb. Beləliklə, bu süni dövlət həm də faşizm yuvasıdır, burada terrorizm dövlət səviyyəsində dəstəklənir. Xocalı soyqırımı erməniliyin superdövlətlərə və güclərə verdiyi geosiyasi vədlərə, törətdikləri etnik təmizləməyə, soyqırımına, təxribatlara, terrora görə cəzalandırılmadıqlarına görə baş tutub. Bu gün də həmin hərbi cinayətkarlar azadlıqdadırlar. Bu etnik təmizləmə bir əmrin və yaxud çılğınlığın, qəzəbin nəticəsi deyil, düşünülmüş, tarixən ermənilik sisteminin törətdiyi soyqırımı proseslərinin yalnız üzə çıxanıdır. Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın zabitləri Seyran Ohanyan (işğal edilmiş Dağlıq Qarabağda Ermənistanın yaratdığı oyuncaq qurumun “müdafiə naziri” olmuşdur), Yevgeni Nabokix, Valeri Citcyan rəhbərlik etmişlər. Soyqırımının törədilməsində Ermənistanın sabiq prezidentləri Serj Sarkisyan, keçmiş Robert Köçəryan və hazırda işğalçı respublikada vəzifədə olan onlarla şəxs birbaşa cavabdehdirlər.

Sabiq prezident Serj Sarkisyanın təkcə: “Xocalı hadisəsinə qədər azərbaycanlılar fikirləşirdilər ki, biz mülki əhaliyə əl qaldırmayacağıq - biz bu stereotipi qıra bildik”, - fikirlərini xatırlamaq kifayətdir ki, bu soyqırımının şüurlu surətdə törədildiyi təsdiq edilsin. Birmənalı şəkildə qeyd etmək vacibdir ki, həm fiziki, həm də mənəvi soyqırımı törədən ermənilərin qarşısını imperiya rəhbərləri nəinki almaq istəyirdi, əksinə onlara hərtərəfli dəstək də verilirdi. Yaxşı yadımdadır, Z.Balayanın “Oçaq” kitabı yayılanda minlərlə azərbaycanlı, əsasən də gənclər onun əməkdaşı olduğu “Literaturnaya qazeta”ya etiraz məktubları yazdılar, teleqramlar vurdular. Bu qəzetin baş redaktoru Çakovskinin imzası ilə belə bir cavab alınmışdı ki, Zori Balayan bizim istedadlı əməkdaşımızdır. Öz məsələnizi öz aranızda həll edin.

Ermənilər tərəfindən törədilmiş Xocalı faciəsinin soyqırımı olması Livanın paytaxtı Beyrutda yaşayan bir erməni jurnalistin yazısı ilə də təsdiqini tapır. “Əş-Şərq” agentliyi tərəfindən nəşr olunmuş bu qanlı hadisələri təsvir edən kitabın adı “Xaç naminə...”dir. Müəllif Daud Xeyriyan kitabın 19-76-cı səhifələrini Xocalı hadisələrinə həsr etmişdir. Soyqırımı iştirakçısı yazır: “Bəzən biz ölülərin üzərindən yürüməli olurduq. Daşbulaq yaxınlığındakı bataqlığı keçmək üçün cəsədlər döşənmiş yol düzəltdik. Mən ölülər üzərindən yürüməyə etiraz etdim. Sonra polkovnik Ohanyan mənə qorxmamaq əmri verdi. Bu hərbi qanunlardan biridir. Mən ayağımı 9 və ya 10 yaşlarında bir qızın sinəsinə basaraq yürüməyə başladım... Mənim ayaqlarım və fotokameram qan içərisində idi...”. Daha sonra yazırdı ki, cəsədlərin yandırılması ilə məşğul olan “Xaç “Qaflan” erməni qrupu martın 2-də 100 nəfər türkün (oxu - azərbaycanlının - A.C.) cəsədini toplamış və Xocalıdan bir kilometr qərbdə yandırmışdır... Mən 10 yaşında əlindən və başından yaralanmış bir qızın avtomobil yolunda yerdə uzandığını gördüm. Onun üzü artıq mavi rəngə çalırdı. Lakin aclıq, soyuqluq və yaralarına baxmayaraq hələ sağ idi. O, çətinliklə nəfəs alırdı. Onu da ölənlərin içinə atdılar və yandırdılar. Yanan meyitlərin içindən ağlamaq səsi gəlirdi.

Bütün bunlar Xocalı faciəsinin bəşər tarixində ən qanlı, ən dəhşətli, ən qeyri-insani soyqırımının bariz nümunəsi olduğunu təsdiq edir. Ermənilər özlüyündə nə Xocalını, nə də digər ərazilərimizi işğal etmək iqtidarında deyildilər. Onlar təkmil silahlanmış hərbi muzdluları, terrorçuları, Rusiyanın ixtiyarında olan keçmiş Sovet ordusunun 366-cı motoatıcı polkunun zirehli texnikası və heyətinin yardımı ilə bu soyqırımı törətdilər, ərazilərimizi işğal etdilər. Diqqət edin. Bu hərbi hissədə 49 erməni zabiti və praporşiki xidmət edirdi. Polk 100 hərbi texnikaya, 350 nəfər heyətə malik idi. Təbii ki, yüngül silaha malik Xocalı milisi və könüllüsü zirehli texnikanın qarşısını ala bilməzdilər. Soyqırımı törətməkdə iştirak etmiş 366-cı polk Dağlıq Qarabağdan çıxarılaraq ləğv edilir, heç kim də məsuliyyətə cəlb edilmir. Yəni, burada hərbi qulluqda olan, məsuliyyət daşıyan erməni zabit və praporşikləri də həmçinin. Xocalı soyqırımından sonra həqiqətlər mərkəzi kütləvi informasiya vasitələri tərəfindən yenidən təhrif olunur. Ermənilər hazırda bütün gücləri ilə Dağlıq Qarabağın ilhaqını qanuniləşdirmək istəyirlər. Birinci erməni prezidenti Levon Ter-Petrosyan DQ barədə deyir ki, “milli öz müqəddəratını təyin etmə” - bu, mənim üçün mütləqdir. Rusiya Prezidentinin milli münasibətlər üzrə müşaviri Qalina Staravoytsova onun bu fikrini dəstəkləyir: “Təəssüf edirəm ki, mənim rus xalqım bu birləşmə ilə həmrəy deyil, ancaq çox şadam ki, mənim ölkəmin o biri xalqı (erməni - A.C.) buna hazırdır.” MDB hərbi qüvvələrinin mətbuat xidmətindən isə Azərbaycan tərəfindən yayılan məlumatların təxribat olduğu və hərbçiləri ləkələmək üçün yayıldığı bildirilir. “Pro-Armenia” agentliyi isə mülki şəxslər arasında ölənlərin olmadığını, 30-40 Azərbaycan əsgərinin həlak olduğu, 100-nün isə əsir düşdüyünü yayır. Mülki şəxslərin meyitlərinə gəldikdə isə Ağdama tərəf geri çəkilən Azərbaycan ordusunun özünün bu meyitləri Xocalı yolunda qoyduğunu iddia edir. Fransız jurnalisti Jan-İv Yunet gördüyündən dəhşətə gəlir, erməni və rus dezinformasiyasının əksinə olaraq həqiqətləri yazır: “Biz Xocalı faciəsinin şahidi olduq. Xocalını yüzlərlə müdafiə edənlərin, qocaların, qadınların, uşaqların meyitlərini gördük. Bizə vertolyot da verdilər. Biz quş uçuşu hündürlüyündən Xocalının ətrafını çəkirdik. Lakin ermənilər bizi atəşə tutdular. Çəkilişimiz yarımçıq qaldı. Dəhşətli mənzərə idi. Mən müharibə, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, ancaq ermənilər beş-altı yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər.”

Xocalı soyqırımını tarixi köklərdən, ermənilik sisteminin nəticəsi olmasından və Qarabağ dərdindən ayrı yazmaq, demək, həll etmək mümkün deyildir. Bir sözlə, Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilməməsi ermənilik sisteminin dünyanın böyük siyasi qüvvələrinin geosiyasi maraqlarının ödənilməsində vədlərinə və onların bu istiqamətdə fəaliyyətlərinə bağlıdır. ***Bizim bəzi sadəlövh yazarlarımız Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın mövqeyini həllə yaxın qiymətləndirirlər. Bu səbəblə də daha uzaq görən və hiyləgər erməni siyasətçisinin 22 mart 2017-ci ildə PanARMENIAN.Net saytına verdiyi müsahibədən bəzi tezislərini diqqətə çatdırmaq istəyirəm:***

***- Artsaxın danışıqlar masasına qaytarılması danışıqlar planında baxılmır. Həmsədrlər şifahi söz veriblər ki, danışıqların elə mərhələsi gələcək ki, Qarabağ müstəqil tərəf kimi danışıqlarda iştirak edəcək. Mən bu zamanın gələcəyi vaxtı bilirəm, indi demirəm.***

***- Biz bu əraziləri azad edilmiş, tarixi, müqəddəs və s. adlandıra bilərik, lakin beynəlxalq hüquqda bu yoxdur və olmayacaq da. Biz “azad edilmiş” deyə bilərik, lakin beynəlxalq hüquq işğal adlandırır, başqa ad vermir.***

***- Bizim Azərbaycanla heç bir problemimiz yoxdur. Biz iki münaqişəli tərəflərik. Problemin həlli üçün beynəlxalq instansiyalara müraciət etmişik. İnstansiya hansı qərarı qəbul etsə onu Ermənistan və Azərbaycan qəbul etməlidir.***

***- Azərbaycan razılaşmanı imzalayan ölkələrin qarant olacaqlarını qəbul edir. Əgər DQR və Laçın ərazilərinə dair anlaşma pozularsa Ermənistan müdaxilə hüququna malik olacaq və pozuntuya yol verməyəcəkdir.***

Beləliklə, bu tezislərdən çox şey aydın olur. Nəzərə alaq ki, indiyədək Minsk qrupu həmsədrləri BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlyüyünü təsdiq edən və işğalçı qoşunların qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin yerinə yetirilməsini tələb etməyib, ədalətli həll tərəfdə durmayıb, hətta ermənipərəst mövqe tutublar, halbuki 5 daimi üzvün üçü önların özləridir. 822-ci qətnamədə çox aydın yazılır ki, işğalçı qoşunlar zəbt etdikləri ərazidən qeyd-şərtsiz çıxarılmalıdırlar. Minsk qrupunun vasitəçiliyi sonra gəlir və bu prosesdən sonra effektli ola bilər. Lakin KİV materiallarından aydın görürük ki, həmsədrlər danışıqları BMT qətnaməsinə əsasən aparmırlar. Danışıqların uzadılmasının bir məntiqi səbəbini də belə anlayaq ki, Levonun dediyi kimi, Artsaxın tərəf kimi müvəqqəti kənarda saxlanması, işğalçı və soyqırımı müəllifi Ermənistanın qarant kimi nəinki 1991-ci ildə muxtariyyəti ləğv olunmuş Dağlıq Qarabağ üçün müstəqillik əldə edilməsi və hətta Azərbaycanın bu ərazidən kənarda olan Laçına da müdaxilə hüququ qazanması üçündür. İşğalçı Ermənistanın yeni baş naziri Nikol Paşinyan qondarma Atrsaxın danışıqlar masasında oturmasında israr edir. Beləliklə, onun mövqeyi ilə Petrosyanın hədəfi bu nöqtədə birləşir. Bir daha aydın olur ki, Xocalı soyqırımına dünya birliklərinin, aparıcı dövlətlərin siyasi-hüquqi qiymət verməmələrinin səbəbi “ermənilıy”in böyük siyasi qüvvələrin əlində vasitə olmasıdır. Bir mühüm detala da diqqət yetirək. ***Kavkazplyus.com saytının 2019-cu il fevral ayının 12-də “Erməni millətçiləri gürcü və azərbaycanlıları kütləvi qırğınla təhdid edirlər” məqaləsində deyilir ki, “Gürcüstanın erməni icması” saytında minlərlə mülki insanın məhv edilməsində iştirakçı olan erməni terrorçusu Mixail Avaqyana heykəl qoyulmasının əleyhinə çıxan gürcü və azərbaycanlıları kütləvi məhv edəcəkləri ilə hədələyirlər ki, yola gəlin, kim könüllü yola gəlməzsə, biz yola gətirəcəyik. Gürcüstanın sahibi kimi danışır və gürcülərə ultimatum verirlər. Artıq Tbilisinin erməni şəhəri olduğunu iddia edirlər.***

***Beləliklə, “ermənilik” sisteminin tarixən mahiyyəti böyük siyasi, iqtisadi, sosial qurumların içinə sızıb, oralarda kök atıb, vacib və nüfuzlu kürsülərdə əyləşmək, zəruru mövqelərə yiyələnmək, aparıcı dövlətlərdə mühüm postları əldə etmək, həlledici vəzifələrdə həmin qurumların və aparıcı dövlətlərin maraqlarına öz mənafelərini hopduraraq ərazi, iqtisadi və sosial iddialarını bütün - yalan və saxta tarix, terror, etnik təmizləmə, soyqırımı, təxribat, dezinformasiya yollarıyla, erməni də olsa maneçilik törədən, əleyhinə çıxan hər kəsi aradan götürmək, tarix boyu özləri erməni əhalini 1988-ci il fevralın 19-da Sumqayıtdakı, 1990-cı il yanvarın 13-14-də Bakıda olduğu kimi qırğına məruz qoyub başqa xalqların adına yazmaq və lazım gələn kimi erməni bolşevik və daşnaklar kimi batində əməkdaşlıq edib zahirdə bir-birinin “düşməni”nə çevrilməklə reallaşdırmaqdır.*** Bu, artıq faşizmin yaratdığı faciələrdən daha dəhşətli sonuclara səbəb olacaq qarşıdurma yaratmaq və bu qan çanağının içində öz mənafelərini reallaşdırmağa hesablanmış **siyasi buqələmun etnopsixoz xəstəliyinin** təzahürüdür.

Onlara qarşı dura bilmək üçün isə xalq-iqtidar birliyi və həm tarixi, həm də müasir həqiqətləri beynəlxalq aləmə **bütün səviyyələrdə** çatdırmaq ən vacib şərtdir. Müasir dünyamızda beynəlxalq qanunlara riayət edilmədiyi göz önündədir. “Kim güclüdürsə o da haqlıdır” prinsipi daha çox meydana çıxır. Nüfuzlu beynəlxalq təşkilatların ədalətli qətnamələrinə riayət etməyən ermənilik məhz həmin destruktiv siyasi qüvvələrin geosiyasi maraqlarının reallaşmasına dəstək vermələrinə arxalanır. Azərbaycan rəhbərliyi bu reallıqdan çıxış edərək öz iqtisadi qüdrətini daim artırır, beynəlxalq əməkdaşlıqda hər bir tərəfin mənafeyinə müvafiq konstruktiv əlaqələr qurmaqla bütün iştirakçı tərəfdaşlara inkişaf, sabitlik, qarşılıqlı anlaşma, milli-dini dözümlülük, sülh töhfələri nümayiş etdirir. Təsadüfi deyil ki, Avropa İttifaqının 9 üzvü ölkəmizin strateji tərəfdaşıdır. Son 15 ildə böyük iqtisadi sıçrayışa nail olmuş dövlətimiz regionun iqtisadi, siyasi gücünə və multikultural mərkəzinə çevrilib. Bu möhkəm təməl üzərində ordu quruculuğu və müdafiə sənayesi də uğurla inkişaf edir.

Dövlət başçısı Azərbaycanın ərazi bütövlüyünün əsas olduğu və danışıqlar prosesinin davam edəcəyi, bununla bərabər ordunun daha da gücləndiriləcəyi barədə deyib: “Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır. Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir”.

Xocalı faciəsi bütün insanlığa qarşı törədilən bəşəri cinayətdir, zaman keçdikcə hər bir azərbaycanlının qəlbində baş verənlər haqqında həqiqətləri daha dərindən araşdırmağa, nəticə çıxarmağa, milli varlığımızı qorumaq üçün daim tədbirli olmağa, bu qan yaddaşı nəsildən-nəslə ötürməyə səsləyir, bətndə öldürülmüş günahsız körpələrin, diri-diri dərisi soyulan qızcığazların, uşaqların, insanın ağlına gəlməyən işgəncələrlə qətl edilmiş gənclərimizin, ağsaqqallarımızın, ağbirçəklərimizin intiqamını almağa haraylayır.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**

---

# Şəhid yurdun ağrısı

**Qanlı faciədən sonra, uzun illər boyu belə bir sual həmişə bizi düşündürüb, heç vədə rahatlıq verməyib, qırğının səbəbləri haqqında qaranlıq qalan sualların çoxuna aydınlıq yaransa da, hələ də üstü açılmayan məqamlar çoxdur. Keçmişə, ötən əsrin 90-cı illərinə qayıdanda, mövcud vəziyyəti təhlil edəndə yenə də həmin haqlı sual yaranır:**

- Xocalını və xocalılıları xilas etmək mümkün idimi?!

Həmin vaxt respublikada ictimai-siyasi sabitlik ciddi şəkildə pozulmuş, hakimiyyət demək olar ki, tamamilə öz yerindən oynamış, prezident üsul idarəsi iflic vəziyyətinə düşmüş, parçalanma, anarxiya, qanunların işləməməsi, ən əsası isə hakimiyyət uğrunda gedən çarpışmalar Qarabağda baş verən hadisələri daha da sürətləndirdi. Ermənistan hakimiyyəti və onların havadarları, erməni lobbisi bu fürsətdən yararlanmaq öz çirkin planlarını həyata keçirmək üçün döyüşlərin intensivliyini artırdılar.

Erməni yaşayış məntəqələrinin əhatəsində olan Xocalı demək olar ki, altı aydan artıq bir müddətdə mühasirədə, dinc əhali dözülməz şəraitdə qalmışdı. Respublika rəhbərliyinə mütəmadi şəkildə edilən müraciətlərə isə cavab verilmir, əhalinin mühasirədən çıxarılması üçün heç bir tədbir görülmürdü. Təcrübəli hərbiçiləri daxili qoşunlardan və milli ordudan kənarlaşdırır, heç bir hərbi təhsili olmayan adamları müdafiə naziri, daxili qoşunların komandanı vəzifəsinə təyin edirdilər.

Hələ o vaxt Ağdamda daxili qoşunların komandanının rəhbərliyi ilə “Eşşək” əməliyyatı adı altında rüsvayçı və gülünc Xocalını xilas planı hazırlanmışdı. Daxili qoşunların komandanı belə bir göstəriş verir ki, bölgədəki eşşəkləri toplayaraq Ağdama gətirirlər və onları Əsgəran istiqamətində buraxırlar ki, ermənilər tərəfindən minalanmış sahələr təmizlənsin. Bu yersiz, naşı və gülünc əməliyyat da baş tutmayıb.

Xocalıda əhali tam köməksiz qalmış, yerli özünümüdafiə dəstələri və milli ordunun bir tağımı erməni hərbi birləşmələrinə qarşı qeyri-bərabər şəraitdə döyüşürdülər.

Həmin gərgin günlərdə şəhər rəhbərinin naməlum istiqamətə getdiyini heç kəs bilməmiş, o cümlədən, milis şöbəsinin rəisi, prokuror, icra aparatının məsul işçiləri, idarə və müəssisələrin rəhbərləri və digər cavabdeh şəxslər Xocalını tərk etmişdilər. Orada yalnız şəhəri tərk edə bilməyən imkansız adamlar, xəstələr, uşaqlar qalmışdı. Bir sözlə, dinc və köməksiz insanların taleyi üzərində hakimiyyət uğrunda oyunlar gedirdi.

Düşmən belə bir fürsəti əldən qaçırmayaraq Xocalını yandıraraq insanları qətlə yetirdilər, əsir götürərək onlara ağlasığmaz işgəncələr verdilər. Xocalıda öldürülənlərin və yaralananların statistikasına nəzər salanda bir daha aydın olur ki, onların arasında rəhbər işçilərdən bircə nəfər də yoxdur.

Əlavə şərhə ehtiyac qalmır...

Ən yaxın tarixə nəzər salanda şahidlərin dedikləri də yuxarıda dediyimiz fikirlərlə üst-üstə düşür. Qanlı tarixin səhifələrinə nəzər salaq.

1988-1991-ci illər ərzində Qarabağ çox ziddiyyətli, mürəkkəb dövrünü yaşayırdı. Ermənilər silaha sarılır, terrora qurşanır, yurd yerlərimizi yandırır, dinc əhalini qırır, güllələyir, didərgin salırdı. Azərbaycanın o vaxtkı rəhbərləri isə Moskvadan kömək istəyir, qayda-qanun tələb edirdilər. 1991-ci ilin sentyabr ayında Rusiya prezidenti B.Yeltsin, Qazaxıstan prezidenti N.Nazarbayev və A.Mütəllimov Xankəndinə gəlmişdilər. Həmin vaxt bu sətirlərin müəllifi də Xocalı aeroportunda idi. Aeroport bayramsayağı bəzədilmiş, hər tərəfdə Rusiyanın, Qazaxıstanın, Ermənistanın bayraqları asılmışdı. Azərbaycanın bayrağı gözə dəymirdi. Yüzlərlə erməni aeroportu mühasirəyə almışdı. Erməni qızları düz-çörək, şərbətlə V.Yeltsin, N.Nazarbayevi yüksək səviyyədə qarşıladılar. Azərbaycanın o vaxtkı rəhbəri A.Mütəllimov isə bir kənarda büzüşüb qalmışdı. Ermənilər Xankəndidəki danışıqlara da onu buraxmadılar. Və azərbaycanlı jurnalistlər döyülərək təhqirə məruz qaldılar. Bir türk jurnalistini isə ermənilər girov götürdü. Həmin vaxt Xankəndidə fəaliyyət göstərən Respublika Təşkilat Komitəsi, şəxsən V.Polyaniçko belə bir rüsvayçı səhnə düzəltmişdi. Məqsəd isə tamamilə aydın idi. Bu səfərdən sonra, yəni 1991-ci ilin sentyabrından 1992-ci il fevralın 25-nə qədər ermənilər Dağlıq Qarabağdakı bütün Azərbaycan kəndlərini oda qalayaraq boşaltdılar. Fikir verin, cəmi beş aya Qarabağın dağlıq hissəsindəki dədə-baba yurdlarından, İmarət-Qəqrvənddən, Kərkicahandan, Cəmillidən, Meşəlidən, Malıbəylidən, Quşçulardan, Kosalardan, Nəbilərdən, Xocalıdan və başqa kəndlərdən qovulan dinc əhalinin harayını respublikanın o vaxtkı rəhbərləri eşitmədilər. Daha doğrusu, heç bu həvəsdə olmadılar da.

Qarqar çayının sağ və sol sahilləri boyunca yerləşmiş Xocalı elə bir strateji əhəmiyyətə malik idi ki, ermənilərin hava və quru yolları buradan keçirdi. Xocalı erməni kəndlərinin əhatəsində qalsa da, Əsgəranla Xankəndi arasında məğrur dayanmışdı. Xocalı 1991-ci ilin əvvəllərindən hər tərəfdən mühasirəyə alınmışdı. Yollar tamam kəsilmişdi, ümid qalmışdı hava yoluna. Onu da ermənilər hər vaxt atəşə tuta bilirdilər. Bir neçə vertolyot və “AN-2” təyyarəsi ermənilər tərəfindən vurularaq məhv edilmişdi. Həmin illər ərzində Azərbaycan hökuməti tərəfindən Xocalının müdafiəsi üçün heç bir iş görülməmişdi. Və bütün rəhbərlər də bilirdi ki, Xocalı mühasirədə qalıb. Fevralın 25-də isə Xocalının ölüm hökmü oxundu. Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı və erməni hərbi birləşmələri Xocalıya divan tutdu. Əsl soyqırımı törədildi: 613 nəfər həlak oldu, 1275 nəfər əsir düşdü, 8 ailə büsbütün məhv edildi, 200 nəfərdən artıq insan müxtəlif dərəcəli əlil oldu. Faciənin miqyası böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların meyitləri ilə dolu idi. Körpədən tutmuş qocaya qədər hamısı süngülərdən keçirilmişdi.

O vaxt hamını bir sual düşündürürdü: Xocalını xilas etmək mümkün idimi? Bu sualın üstündə isə baş sındırmaq lazım deyil. Sadə bir cavabı var, bəli, mümkün idi. Sadə, dinc əhalinin taleyi üzərində hakimiyyət uğrunda gedən oyunlar qurulmasaydı, Xocalını xilas etmək mümkün idi.

Fevralın 26-sı gününü yaxşı xatırlayıram. Soyuq, sazaqlı bir qış günü idi. Şelli dağından ölümün, qəsdin, tələnin pəncəsindən qurtulan uşaqları, qadınları, qocaları qarşılayıb xəstəxanaya yola salırdıq. Yaralarından qan şoralanan bu insanlar bir-birindən, ana baladan, ata oğuldan, qardaş-bacıdan ayrı düşmüşdü. Onları ovundurmaq mümkün deyildi. Həmin vaxt Ağdam özünümüdafiə dəstələri ermənilərə qarşı döyüşərək qan bahasına meyitləri düzlərdən, meşələrdən toplayırdı. Xocalı sakinlərini danışdırır, onların necə qurtulduqlarını soruşurduq. Bu adamlar öz müsibətlərini, faciələrini göz yaşları içərəsində danışsalar da, söhbətlərinin sonunda deyirdilər:

- Bizim bu sözlərimizi bütün Azərbaycana çatdırın. Respublika rəhbərlərini lənətləyirik. Onlar satqın və namərddirlər.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımının üstündən uzun illər keçir. Hələ də bu qanlı faciənin üstü açılmayan, gizli qalmış məqamları çoxdur. Bir çox suallara hələ də cavab tapılmayıb. Hələ yüzlərlə insanın taleyindən heç bir soraq yoxdur.

7 minə yaxın əhalisi olan Xocalı Xankəndidən 10 km cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıdadır. Ermənilərin Xocalıya əsas maraqları da buranın bu cür strateji mövqeyə malik olması ilə əlaqədar idi.

Xocalı azərbaycanlıların tarixən məskunlaşdığı yerdir və qədim tarixi abidələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdı. Həmçinin burada arxitektur badilər - dairəvi qəbr (1356-1357-ci illər) və mavzoley (XIV əsr) vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc, sümük bəzək əşyaları, gildən ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birində Assuriya şahı Adadnerarinin (bizim e.ə. 807-807-ci illər) adı yazılmışdır.

Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olmuşdur. Şəhərdə toxuculuq fabriki, 2 orta məktəb və 2 natamam orta məktəb var idi.

Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içindəki 47 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanmışdı. Şəhərə hücum toplardan, tanklardan, “Alazan” tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlanıb. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləbarana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyiti götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyitlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxarılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prokurorluğunda Xocalı soyqırımını araşdıran istintaq qrupu yaradılmışdır. Həmin istintaq qrupları ayrı-ayrı vaxtlarda, daha doğrusu 1992-ci ildən sonrakı dövrlərdə 100 cilddən artıq istintaq materialları toplamışlar. İstintaq zamanı 3000 nəfərdən artıq Xocalı sakini və digər şahidlər dindirilmişdir. Göründüyü kimi cinayət işi tam sübuta yetirilmişdir. Təəssüf ki, beynəlxalq ictimaiyyət və beynəlxalq hüquq müdafiəçiləri Ermənistanın törətdiyi Xocalı soyqırımına hüquqi siyasi qiymətin verilməsinə göz yumurlar. Bu heç bir məntiqə və demokratiyaya sığmır. Cinayətkar cəzasız qalmamalıdır. Sağ qalmış Xocalı sakinləri ümid edirlər ki, Azərbaycan dövləti öz vətəndaşlarının hüquqlarını qoruyacaq və cinayətkarların cəzalandırılması üçün bütün lazımi tədbirləri həyata keçirəcəkdir.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ulu öndər Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: “...biz toplaşıb Xocalı fəaciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı bu qüdrətə malikdir”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi çox qəti və prinsipialdır: “Azərbaycan öz torpaqlarının işğal altında qalması ilə heç zaman barışmayacaqdır.”

**Salman ALIOĞLU,**
**“Respublika”.**

# GƏNCƏDƏ "UŞAQ TEATR SƏNƏTİ" LAYİHƏSİ

"Uşaq teatr sənəti" adlı orta məktəblərdə öyrədici pilot layihəsinin yekun tamaşası hesab olunan "Gözəl və Cadugər" tamaşasının təntənəli təqdimatı olmuşdur. Təntənəli təqdimatda 8 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin müdiri Fəraid Qəhramanov, Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov, Metodik Mərkəzin direktoru Söhrab Hacıyev, KİV nümayəndələri, məktəb direktorları və qabaqcıl təhsil işçiləri iştirak edirdilər. Dövlət Himni səsləndikdən sonra tədbiri giriş sözü ilə açan layihənin rəhbəri, 17 saylı tam orta məktəbin direktoru Nərgiz Həsənova layihənin məqsədi, məramı və vəzifələri haqqında geniş məlumat verərək bildirdi ki, bu layihə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş və Gəncə şəhəri 17 nömrəli tam orta məktəbi tərəfindən icra olunmuşdur. Layihənin əsas məqsədi uşaqların bacarıqlarını inkişaf etdirməklə, onların özlərinə güvənlərini artırmaq, kollektivlə işləmək kimi qabiliyyətlərini aşkarlamaq, bununla bərabər onların asudə vaxtlarını



səmərəli təşkil etməkdir. Onu qeyd etmək lazımdır ki, "Gözəl və Cadugər" tamaşasına Gəncə Dövlət Kukla Teatrının peşəkar rejissoru Şamil Məmmədli tərəfindən quruluş verilmiş, ssenari üzrə çox ciddi məşqlərə başlanılmışdır. Tamaşanın ərsəyə gəlməsi üçün layihəyə 30 nəfər uşaq seçilərək cəlb olunmuşdur.

Təqdimatda çıxış edən Gəncə Şəhər Təhsil İdarəsinin rəisi Zakir Hüseynov belə layihələrin olduqca əhəmiyyət kəsb etdiyini dilə gətirərək, bu layihənin də uğurla həyata keçirildiyini bildirdi. Zakir Hüseynov yüksəksəviyyəli və aktual tədbirlərin keçirilməsinin valideynlər və şagirdlər tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayaraq, uşaqlara bu atdıqları peşəkarlıq yolunda müvəffəqiyyətlər arzulayaraq, tam əminliklə bildirdi ki, tamaşaçılar bu tamaşadan zövq alacaq, istirahət edəcəklər.

Sonda layihənin rəhbəri, 17 saylı tam orta məktəbin direktoru Nərgiz Həsənova çıxış edərək, Təhsil Nazirliyinə, Gəncə Şəhər Təhsil İdarəsinə, Gəncə Kukla Teatrının direktoru Rəmail Paşayevə, ümumiyyətlə bu işdə zəhməti olan hər kəsə minnətdarlıqlarını bildirdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# "Quş qripi" ilə bağlı monitorinq

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) "quş qripi" xəstəliyi ilə bağlı keçirilən monitorinqi davam etdirir. Milli qoruq və parklarda, quşçuluq və fərdi təsərrüfatlarda "quş qripi" xəstəliyinə görə aparılması nəzərdə tutulan növbəti monitorinqə fevralın 25-dən başlanılıb. Monitorinq Dövlət Baytarlıq Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mütəxəssis və əməkdaşlarının iştirakı ilə keçirilir.

Tədbirin fevralın 25-dən martın 1-dək köçəri quşların müvəqqəti məskunlaşdığı Pirallahı adasındakı Abşeron Milli Parkında, Şabran rayonundakı Ağzıbir ovçuluq təsərrüfatında, Salyan rayonundakı Şirvan Milli Parkında, Ağcabədi rayonundakı Ağ göl Milli Parkında və Lənkəran rayonundakı Qızılağac Dövlət Təbiət Qoruğunda həyata keçirilməsi nəzərdə tutulub. Bundan əlavə, monitorinq aparılan müddətdə quşçuluq və şəxsi təsərrüfatlardan da nümunələr götürüləcək.

Artıq Dövlət Baytarlıq Xidmətinin əməkdaşları Pirallahı adasındakı Abşeron Milli Parkından 8 baş seçmə üsulla ovlanmış köçəri quşlardan patoloji material, həmçinin Abşeron rayonundakı şəxsi və quşçuluq təsərrüfatlarında saxlanılan 50 baş ev quşundan qan nümunələri götürüblər.

Köçəri quşlar üzrə monitorinq aparılan ərazidə xəstə və xəstəlikdən tələf olan quşlara təsadüf edilməyib, eləcə də nümunə götürülən təsərrüfatlarda saxlanılan quşlar arasında hər hansı iti yoluxucu xəstəliyə rast gəlinməyib.

Götürülmüş materiallar Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Baytarlıq Laboratoriyasında müayinə olunacaq və nəticələr ictimaiyyətə açıqlanacaq.

Dövlət Baytarlıq Xidməti bildirir ki, hazırda "quş qripi" və digər iti yoluxucu xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

## "Sevilya bərbəri" operasının tamaşası keçiriləcəkdir

Martın 9-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Coakkino Rossininin "Sevilya bərbəri" operasının tamaşası keçiriləcək.

Tamaşada Fiqaro partiyasını ifa etmək üçün Opera və Balet Teatrının rəhbərliyi Hamburq Dövlət Operasının (Almaniya) və Moskvanın "Novaya opera" Teatrının solisti, Vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Aleksey Boqdançikovu dəvət etmişdir.

Tamaşada rusiyalı vokalçı ilə yanaşı Azərbaycan Opera və Balet Teatrının solistləri - Xalq artistləri Fidan Hacıyeva (Rozina), Əli Əsgərov (Don Bazilio), Əkrəm Poladov (doktor Bartolo), Əməkdar artistlər Fərid Əliyev (qraf Almaviva), Tural Ağasıyev (Fiorello), həmçinin solistlər Nina Makarova (Berta) və Firus Məmmədov (Zabot) çıxış edəcəklər.

Tamaşanı Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin və "Humay" Milli mükafatının laureatı Əyyub Quliyev idarə edəcəkdir.

## "Çölçü" bədii filmi mükafata layiq görülmüşdür

Rejissor Şamil Əliyevin "Çölçü" bədii filmi Hindistanda keçirilən "CROWN WOOD INTERNATIONAL" Film Festivalında iştirak edərək "Ən yaxşı bədii film" və "Ən yaxşı rejissor" mükafatlarına layiq görülmüşdür.

Qeyd edək ki, "Çölçü" filmi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanfilm" kinostudiyasında 2012-ci ildə istehsal olunmuşdur.

Filmin ssenari müəllifi Vidadi Həsənov, operatoru Rafiq Quliyev, rəssamları Rafiq Nəsirov və İbrahim Aminovdur.

Filmdə Vidadi Həsənov, Bəhruz Vaqifoğlu, Cavidan Məmmədov və başqaları çəkilib.

"Çölçü" filmi 5 qitəni əhatə edən 44 Beynəlxalq Kino Festivalında və forumlarda iştirak etmiş, "Ən yaxşı bədii film", "Ən yaxşı rejissor işinə görə", "Ən yaxşı ssenari", "Ən yaxşı aktrisa" və s. bir çox mükafatlar qazanmışdır.

**Humanitar siyasət redaksiyası.**

# Gürcüstanlı həmkarlarımız AZƏRTAC-ın kollektivini təbrik edirlər

**Gürcüstanda geniş oxucu kütləsinə malik gaxa.ge və 24nes.ge portalları, "Gürcüstan" qəzeti Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın fəaliyyətə başlamasının 99-cu ildönümündən yazır, bu münasibətlə agentliyin kollektivini təbrik edirlər.**




Gaxa.ge saytının rəhbəri, Azərbaycanın Əməkdar jurnalisti Nizami Məmmədzadə AZƏRTAC-ın 99 illik fəaliyyətinə, keçdiyi mürəkkəb və şərəfli yola nəzər salıb, qazandığı uğurlardan bəhs edib. Jurnalist qeyd edir ki, dünya informasiya məkanında layiqli yer tutan AZƏRTAC ölkədə jurnalistikanın inkişafına və peşəkar jurnalistlərin yetişdirilməsinə də mühüm töhfə verib. Agentliyin 8 dildə xəbər yayımladığını vurğulayan jurnalist, onun dəqiq və qərəzsiz informasiyalarının Gürcüstanda da maraqla qarşılandığını bildirir.

24nes.ge portalında və "Gürcüstan" qəzetində də AZƏRTAC-ın fəaliyyətindən, qazandığı uğurlardan ətraflı bəhs olunur.

**AZƏRTAC**

# Teatra sevgi azalmır



***Çağdaş dövrün insanını, xüsusən azyaşlıları mənəvi-estetik zövqə kökləmək, bu mənada onlara istiqamət vermək elə də asan deyil. Çünki hazırkı vizual vasitələr və yaradıcı nümunələrin zənginliyi bunu mümkünsüz edir. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə ilə söhbətimiz də bu mövzuda oldu.***

**- Əvvəla, festivallarda qazandığınız uğurlara görə sizi təbrik edirik. İlk olaraq, "Xəzərin sahili" festivalı ilə bağlı təəssüratlarınızı bizimlə bölüşərdiniz.**

- Kukla Teatrı elə teatrlardandır ki, festivalla bağlı heç bir problemimiz olmur. Hazırda istənilən festivala müsabiqədən kənar dəvət olunuruq. Kollektivimizin zəhməti, əməyi ilə teatrımız o səviyyəyə çatıb ki, bizi dəvət edən insanlar tamaşalarımızı ya görüb, ya da haqqımızda eşidiblər. Tədbirlərə qatılırıqsa, birinci, ikinci yerlərdən birini tuturuq, yaxud da "Ən yaxşı rejissor", "Ən yaxşı aktyor" mükafatlarını qazanırıq. Biz Həştərxan festivalında "Üç cəsur" tamaşası ilə çıxış etdik. Məşhur teatrşünas A.Bartoşeviç dedi ki, təsəvvür edə bilməzdik ki, Azərbaycan teatrı rus dilində bu qədər səlis tamaşa oynaya bilər.

Həştərxanda Heydər Əliyev adına məktəb var. Tamaşamıza məktəbin şagirdləri də gəlmişdi. Sonra rəhbərliklə belə danışığımız oldu ki, növbəti dəfə gələndə həmin məktəbin şagirdləri üçün təmənnasız tamaşa göstərək.

**- Bu festivalda rəqibləriniz kimlər idi?**

- Adından da məlum olduğu kimi, buraya Xəzəryanı ölkələr dəvət olunmuşdu. Bundan başqa, qonaq qismində Donbasdan və Donetskdən də gəlmişdilər.

**- Aldığınız mükafatları qazanacağınıza əmin idiniz?**

- Əslində, bu festivala biz üçüncü dəfədir ki, qatılırıq, heç vaxt da mükafatsız qayıtmamışıq. Onlar artıq bizim gücümüzü görüblər. Birinci dəfə "Qırmızı papaq", növbəti dəfə "Ağ və qara" tamaşası ilə festivalda iştirak etmişik. Bu dəfə festivalın təşkilat komitəsinin xahişi ilə Mirmehdi Seyidzadənin "Cırtdan" əsəri əsasında Qurban Məsimovun quruluşunda hazırlanan "Üç cəsur" nağıl-tamaşasını göstərdik.

**- Kuklaçılar üçün böyük önəm daşıyan S.V.Obraztsov adına IX Beynəlxalq Kukla Teatrları festivalında da uğurla çıxış etdiniz. Bu barədə də təəssüratlarınız maraqlıdır.**

- Bu festivala qatılmağımızın maraqlı tarixçəsi var. Bir neçə il öncə biz İvanovo şəhərində festivalda idik. Sergey Obraztsovun nəvəsi də həmin festivala gəlmişdi. Yeri gəlmişkən, festivala bir neçə ölkə ilə yanaşı, Ermənistanın da səviyyəsiz teatrı qatılmışdı. Tamaşamızdan sonra təxminən on dəqiqəyə yaxın nə Obraztsovun nəvəsi, nə də Ermənistandan gələn teatr kollektivi zalda yerlərindən dura bilmişdi. Tamaşamıza heyran olmuşdular.

**- Bildiyimə görə, buraya 7 ölkədən 17-dən artıq teatr kollektivi qatılmışdı. Bu qədər iştirakçılarla rəqabət aparmaq çətin olmadı ki?**

- Biz festivala qatılmağa qərar veririksə, festivalın proqramında neçə teatrın olmasının heç bir fərqi yoxdur. Biz ancaq seyrçilər üçün oynayırıq. Tamaşamızı da oynayanda kiminsə xoşuna gəlmək üçün yox, özümüzə görə də heç bir çatışmazlıq olmamalıdır. Çünki gözə dəyə biləcək hər hansı qüsur tamaşaya mənfi təsir edir.

**- Bu səfərdən hansı mükafatla qayıtdınız?**

- Bu festivalda müsabiqə yox idi. Amma mükafatsız da dönmədik. Tamaşamız festivalın ən yaxşı səhnə işlərindən biri kimi yüksək qiymətləndirildi. Festivalın simvolunu aldıq, bundan başqa, özlərinin loqolarını hədiyyə verdilər. Onu da qeyd edim ki, bu teatrla bizim Kukla Teatrı eyni yaşdadır. Və orada videoçarxlara baxdıqda bizi bir qədər həyəcan bürümüşdü ki, yaşıdıq, bizə bu qədər dəyər verirlər, gərək hər şey mükəmməl ola.

**- Xarici seyrçilər tamaşalarımızı necə qarşıladılar?**

- Mənim üçün ən ağır məsələ, teatrımızı haradasa tərifləməkdir. Lakin olanı deyəcəm. Onların öz sözləri ilə desəm, "şokda idilər". Aktyorların ustalıqları, kuklaların idarə olunması çox bəyənilmişdi.

**- Mətbuatdan öyrəndik ki, festival çərçivəsində "dəyirmi masa" və ustad dərsləri keçirilib. Hər hansı yeniliklər deyildimi həmin ustad dərslərində?**

- İstənilən aktyorun, rejissorun yaradıcılıq söhbətləri yaradıcı insan üçün lazımdır. Fikrimcə, yaradıcılıqda "nəyə lazımdır?" sualı olmamalıdır. Hər teatr gücünü festivallarda göstərir. Xırda bir məsləhət belə, yararlı sayılırsa, tapıntı deməkdir. Əslində, burada kukla teatrlarında kuklaların hazırlanma prosesi, onlarla bağlı məsələlər müzakirə olunurdu.

**- Bu festivallardan hansı təcrübəni qazandınız?**

- Təkcə bu festival deyil, qatıldığımız bütün festivallardan nələrsə öyrənmişik. On il bundan qabaq kukla teatrında iki-üç mexanizm var idisə, artıq bu illər ərzində bizim teatrda bütün mexanizmlərdə kuklalarımız var. Hazırda teatrımızda 2 smdən 7 metrədək ölçüdə kuklalarımız mövcuddur. Bütün bunlar festivallarda yığdığımız təcrübənin nəticəsidir.

**- Qarşıda kuklasevərləri hansı yeni maraqlı tamaşalar, festivallar gözləyir?**

- Dəvətlər var, ancaq öz repertuarımızla bağlı festivallarda iştirakı bu ilə saxlamışıq. İlin sonuna qədər təhvil verilməli bir neçə tamaşamız var. Bunlar məşhur "Keloğlanın macəraları", "Maşa və ayı" kimi səhnə nümunələri balaca teatrsevərlərimizin ixtiyarına veriləcək. Onu da qeyd edim ki, biz bu üç tamaşanı repertuara daxil edərkən tamaşaçılar arasında aylarla keçirdiyimiz sorğuya əsaslandıq.

**- Rəşad müəllim, repertuardan söz düşmüşkən, siz bunu necə tənzimləyirsiniz?**

- Kukla Teatrında repertuarı müəyyən edərkən biz həm əsas tamaşaçılarımız olan balacaların mənəvi-estetik tərbiyəsini, həm də onlar sayəsində daimi tamaşaçımıza çevrilən valideynlərinin, nənə və babalarının, ümumilikdə hər yaş qrupunda tamaşaçının mənəvi istirahətinə, ruhi qidasına zəmin yaratmağa çalışırıq. Bu mənada əsər seçimindən quruluş həllinədək biz hər nüansa dönə-dönə diqqət etmək məcburiyyətindəyik.

**- Balacaların teatra sevgisi, marağı necə, azalmayıb ki?**

- Qətiyyən. Əminliklə deməliyəm ki, teatrımız tam açıq kassa ilə işləyən və daim dolu zala tamaşa verən teatrdır.

**Müsahibəni apardı:**
**Zabit CAVADOV,**
**"Respublika".**

## BİLDİRİŞ

Tofiq Bəhramov adına Respublika Stadionu digər istismar xərcləri, o cümlədən nəzərdə tutulmayan təmir xərclərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012)465-46-87 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 12 mart 2019-cu il 18:00-dək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nərimanov rayonu, F.X.Xoyski 98A*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ

441-20-23

TƏKRAR

## Azərbaycan Memarlıq və İnşaat Universiteti
## AÇIQ TENDER ELAN EDİR

**Azərbaycan Memarlıq və İnşaat Universiteti "Digər maşın və avadanlıqlar" işləri üzrə tender elan edir.**

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən işlər üzrə tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarna malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 100 (yüz) AZN məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində əsas Şərtlər toplusunu Ayna Sultanova küçəsi, 11 ünvanında yerləşən Azərbaycan Memarlıq və İnşaat Universitetindən (Əlaqələndirici şəxs: V.R.Ələkbərovdan, telefon: 538-75-07) ala bilərlər.

**İştirak haqqı bu hesaba köçürülməlidir:**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Ünvan: AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11*
*VÖEN: 1300430721*
*H/h: AZ36AİİB33070019443307889103*
*Kapital Bank Yasamal filialı*
*KOD - 200037, VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə qalmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
*-Son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son 1 (bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 5 aprel 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 15 aprel 2019-cu il saat 17:00-a qədər Azərbaycan Memarlıq və İnşaat Universitetinə (ünvan: Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11, telefon: 538-75-07) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 aprel 2019-cu il saat 11:00-da Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11 ünvanındakı 307 saylı otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Malların (işlərin və xidmətlərin) satınalınması ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi
## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 5 lot üzrə keçirilir:**

**Lot 1:** Komitənin inzibati binasında istifadə olunacaq təsərrüfat mallarının satınalınması;

**Lot 2:** Gömrük orqanları tərəfindən istifadə olunacaq inventarların satınalınması;

**Lot 3:** Müvafiq tədbirlərdə istifadə etmək üçün gül səbətlərinin satınalınması;

**Lot 4:** Dövlət Gömrük Komitəsi tərəfindən istifadə edilən 1C proqram təminatına göstəriləcək texniki dəstək xidmətlərinin satınalınması;

**Lot 5:** Ciddi hesabat blanklarının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, AZ1073, İnşaatçılar prospekti 2 ünvanında yerləşən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən, əlaqələndirici şəxs - Pərviz Fətullayev, tel.: 404-22-00, daxili (0627) ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1: 100 (yüz) manat**
**Lot 2: 100 (yüz) manat**
**Lot 3: 30 (otuz) manat**
**Lot 4: 30 (otuz) manat**
**Lot 5: 100 (yüz) manat**

*Satınalan təşkilat: Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi*
*VÖEN: 1300049571*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*KOD: 210005*
*MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944*
*VÖEN: 1401555071*
*SWİFT BİK CTREAZ22*
*H/HESABI: AZ47CTRE00000000000002248414.*
*BÜDCƏ TƏSNİFATİNİN KODU: 142317;*
*BÜDCƏ SƏVİYYƏSİNİN KODU: 3;*

**İstirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 01 aprel 2019-cu il saat 17:00 tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10 aprel 2019-cu il saat 17.00 tarixə qədər Bakı şəhəri, AZ1073, İnşaatçılar prospekti, 2 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 11 aprel 2019-cu il saat 11.00 tarixində Bakı şəhəri, AZ1073, İnşaatçılar prospekti 2 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsi
## idarənin saxlanılmasına tələb olunan mal və material, dəftərxana ləvazimatları, avadanlıqlar, dərman və sarğı ləvazimatları, digər alışlar və xidmətlərin satınalınması məqsədilə
## KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Gəncə şəhəri, A.Səhhət küçəsi 72 nömrəli ünvana müraciət edə bilərlər. Əlaqələndirici şəxs: Rüstəmli Ülvi (055 700 04 00)

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 mart 2019-cu il saat 17.00-dan gec olmamaq şərtilə yuxarıda qeyd olunan unvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri 12 mart 2019-cu il saat 15.00-da Gəncə şəhəri, A.Səhhət küçəsi 72 nömrəli ünvanda açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Kabıyev Sabir Qiyas oğlunun adına keçmiş Torpaq Komitəsi tərəfindən verilən Torpağa mülkiyyət hüququna dair JN-196 KOD 50200038 dövlət aktı itdiyi üçün etibarsız sayılır. Ünvan: Ağstafa r-nu Eynallı kəndi.

İsmayılov Vasif Cəlil oğlunun adına Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 32 ünvanlarına verilmiş çıxarışları (№0353428) və (№0353580) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru, professor Teymur Əhmədov və redaksiyanın kollektivi Maqsud Qasımova və tanınmış jurnalist Firudin Rəsulova, əzizləri**

**NURƏDDİN RƏSULOVUN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Ataş CƏBRAYILOV**

● **Çapa imzalanmışdır**
**02.03.2019**